Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

24
APREL
2019-cu il
№ 73 (3971)
Qiyməti
40 qəpik

BAKI XƏBƏR
www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTANLA PKK YENİ TERROR TƏŞKİLATI QURUR...

*Suriya ermənilərinin Qarabağda terror təlimi keçdiyi sübut olunur...*

■ səh. 8 ■

**Prezident İlham Əliyev islahatlar üçün də yerlərdən təkliflər gözlədiyini bəyan etdi...**

■ səh. 2 ■

**Azərbaycan Qarabağ sülh prosesində Rusiyanı, Türkiyəni, İranı və Avroittifaqı eyni mövqeyə gətirə bildi - Ermənistanın təklifi daha aydın görünür...**

■ səh. 9 ■

**Azərbaycanın əvvəlki ”Formula”lardan əldə etdiyi qazanclar bu il də davam edəcəkmi...**

■ səh. 11 ■

**Gürcüstana buraxılmayan Azərbaycan vətəndaşlarının sayı kütləvi həddə çatıb... üçüncü ölkəyik...**

■ səh. 10 ■

**Ermənistanın 12 illik milli təhlükəsizlik konsepsiyasını dəyişirlər - ”məxmərilərin” ilginc ABŞ və Rusiya planları...**

■ səh. 10 ■

**Ukraynadakı Azərbaycan diasporu Zelenskinin gəlişini daha məqbul sayır, niyə...**

■ səh. 7 ■

**Qardaş Türkiyədə gey-parad icazəsi Azərbaycanda təəssübkeş narahatlıqla qarşılandı...**

■ səh. 12 ■

**Son illərdə Azərbaycanda plastik əməliyyatlardan ölənlər və şikəst olanlar...**

■ səh. 15 ■



■ səh. 8 ■

## Ermənilərin Paşinyanın bir ilinə baxışı - «Sarkisyan getdi, Paşinyan gəldi, problemlər qaldı...»



**Şəmkirin icra başçısı barədə deyilənlər: uydurma və həqiqətlər...**

■ səh. 6 ■

**Alimlik karyerasında «nailiyyət xatirinə» dilimizin orfoqrafiyasında bu qədər ziyanlı dəyişiklik edənlər...**

■ səh. 13 ■



**ABŞ-da İran siyasi mühacirəti ilə gizli «inqilab müzakirələri» başladı...**

■ səh. 7 ■

■ səh. 3 ■

**Əli Kərimli yazdı, Əli Həsənovdan tutarlı cavabını da aldı...**



■ səh. 5 ■

**Paşinyanın qaçılmaz gördüyü Qarabağ iflasını erməni xalqının peysərinə yükləmək gedişi...**



■ səh. 4 ■

**İlk iki «Formula»ya qoyulan 100 milyon 277 milyon dollar qazanc gətirdi - radikallar nəyi və niyə hədəfləyir...**



■ səh. 5 ■

**PKK, ”Əl-Qaidə”, İŞİD gələ bilmədi, ”Hizbullah” Azərbaycana gələ bildi (?)...**



■ səh. 12 ■

**Əhali üçün işıq və qaz limitinin artırılması təklifinə deputatlar da dəstək verməyə başlayır...**



## Prezident İkinci Dünya Müharibəsinin iştirakçılarına və onların dul arvadlarına yardım olaraq 5 milyon manat ayırdı

**Prezident İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya Müharibəsində iştirak etmiş, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, 1941-1945-ci illərdə İkinci Dünya Müharibəsində iştirak etmiş şəxslərə 1000 (min) manat məbləğində, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin. Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5,0 (beş) milyon manat ayrılması qərara alınıb. Maliyyə Nazirliyinə həmin vəsaitin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsinin təmin edilməsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etmək tapşırılıb. Nazirlər Kabineti isə Sərəncamdan irəli gələn digər məsələləri həll edəcək.

## Nazarbayev dedisə, Tokayev prezidentliyə namizədliyini irəli sürəcək...

**Qazaxıstanın ilk prezidenti, Nur Otan Partiyasının sədri Nursultan Nazarbayev iyunun 9-da keçiriləcək prezident seçkilərində hakim partiyadan Kasım-Jomart Tokayevin namizədliyinin irəli sürülməsini təklif edib.**

"Trend"in məlumatına görə, N.Nazarbayev partiyanın XIX növbədənkənar qurultayında K.Tokayevi çoxdan tanıdığını, onunla uzun illərdir birgə işlədiyini bildirib: "Hesab edirəm ki, o ən layiqli namizəddir". Qeyd edək ki, ölkəyə 30 ilə yaxın müddətdə rəhbərlik edən N.Nazarbayev martın 20-də istefa verib. Bundan əvvəl Senatın sədri olan K.Tokayevin prezident səlahiyyətləri 2020-ci ildə başa çatır. K.Tokayev növbədənkənar prezident seçkilərinin iyulun 9-da keçiriləcəyini bəyan edib.

# Prezident İlham Əliyev islahatlar üçün də yerlərdən təkliflər gözlədiyini bəyan etdi...

**Prezident İlham Əliyev aprelin 23-də Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edib.**



Sakinlərlə görüşən dövlət başçısı deyib ki, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycanda yolların keyfiyyəti dünya miqyasında 34-cü yerdədir. "Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyinə göstəriş verilib ki, Bakı qəsəbələrində yol infrastrukturuna çox ciddi fikir verilsin və demək olar ki, indi bu proses geniş vüsət alıb. Əminəm ki, bütün qəsəbələrdə daxili yollar təmir olunacaq, bərpa ediləcək və insanlara rahatlıq verəcək".

Rayon sakini Altay Mansurov "Həmişə biz Sizin arxanızda böyük bir qüvvə kimi dayanmağa hazırıq"- deyə Prezidentə təşəkkür edib.

Prezident bildirib: "Son prezident seçkiləri ərəfəsində mən bəyan etmişdim ki, növbəti dövr islahatlar dövrü olacaq. Çünki hər bir ölkə üçün islahatlar çox önəmlidir. İslahatlar yenilik, müasirlik, nöqsanların aradan qaldırılması, problemlərin həlli deməkdir. Bizdə hər bir sahə üzrə çox aydın təsəvvür və iş proqramı var.

...Əlbəttə ki, islahatlar hərtərəfli olmalıdır - həm iqtisadi sahədə, sosial sahədə, siyasi sahədə, həm də idarəetmə sahəsində. Bu sahələrdə hələ ki, təkmilləşməyə böyük ehtiyac var. Biz öz siyasətimizi yerlərdən gələn təkliflər əsasında qururuq".

# Ermənistanın Azərbaycana qarşı açıq təxribat oyunlarına BMT də qoşuldu...

**"Bildiyiniz kimi, BMT üzvü olan hər bir ölkənin illik hesabatını qəbul edir. Lakin təəssüf ki, budəfəki hesabatda Ermənistan təxribata yol verib, qondarma "Dağlıq Qarabağ respublikası"nın hesabatının BMT-nin saytında yerləşdirilməsinə nail olub".**

"Trend"in məlumatına görə, bunu Milli Məclisin plenar iclasında millət vəkili Azay Quliyev çıxış edərkən deyib.



O bildirib ki, hesabat rəsmi hesabat statusunda 6 dildə yayılıb: "Buna müvafiq qurumlar tərəfindən münasibət bildirilməlidir. Ermənistan tərəfindən bu cür təxribatlar indiyədək də edilib. Lakin budəfəki təxribata BMT şərait yaradıb. İndiyə qədər heç bir halda BMT tərəfindən belə qanunsuzluğa yol verilməmişdi. Təşkilatın qəbul etdiyi qətnamələr Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Belə olan halda, necə ola bilər ki, BMT tərəfindən belə bir hesabat "Arsax" adı ilə qəbul olunsun? Bu məsələ araşdırılmalı, qanunsuz, qondarma hesabat BMT-nin rəsmi saytından çıxarılmalıdır".

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

## ABŞ Livan "Hizbullah"ının maliyyə mənbələri haqqında məlumat verənlərə 10 milyon dollar mükafat vəd etdi

**ABŞ Livandakı şiə "Hizbullah" təşkilatının maliyyə sistemini çökdürə biləcək məlumatlar verən fərd və qurumlara 10 milyon dollar mükafat veırəcəyini bəyan edib.**




Baki-xeber.com xəbər verir ki, bu barədə ABŞ Maliyyə Nazirliyi, Dövlət Departamentinin iki rəsmisi tərəfindən yayılan birgə açıqlamada deyilir.

Mükafat alacaq şəxslər verəcəkləri məlumatlarla "Hizbullah"-a ianə verənlər, təşkilatın maliyyə işlərini asanlaşdıran qurumlar, "Hizbullah" tərəfindən idarə edilən şirkətlər və səhmlərin, təşkilatın adından fəaliyyət göstərən saxta şirkətlərin müəyyənləşdirilməsini təmin etməlidir.

ABŞ "Hizbullah"-ın Livanda artan siyasi rolundan və bölgədəki təsirindən narahatdır.

# Əli Kərimli yazdı, Əli Həsənovdan tutarlı cavabını da aldı...

*"Müxalifətin sərt reaksiyasını başa düşmək olar - "Formula-1" tamaşaçılarının sayı "Məhsul" stadionuna toplaşanların sayından ən azı 30 dəfə çoxdur..."*

**"Formula-1" yarışı dövlətin nüfuzunun, prestijinin göstəricisi, qürur mənbəyidir. Bakixeber.com-un xəbərinə görə, bu barədə Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun "İlham Əliyevin dostları" adlı "Facebook" səhifəsində dərc olunan "Azərbaycanın "Formula-1" yüksəkliyi, milli qürur hissi və Əli Kərimli kimilərin mədə təfəkkürü" adlı məqaləsində deyilir.**

Qeyd olunur ki, 25 il tarixi nöqteyi-nəzərdən dövlət qurmaq üçün çox qısa bir dövrdür. Geosiyasi və daxili proseslər sabit məcrada cərəyan edirsə, milli dövlətin formalaşması üçün bu müddət yetərli hesab oluna bilər, lakin onun inkişafı daha çox zaman və güc tələb edir. Əgər hər hansı bir xalq cəmi 25 ilə olduqca gərgin beynəlxalq və regional şəraitdə sabit və milli birliyə söykənən vətəndaş birliyi yarada bilibsə, güclü iqtisadiyyata, yüksək beynəlxalq nüfuza malik, regionun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilən və qlobal proseslərdə öz sözünü deməyi bacaran müstəqil bir dövlət qurmağı bacarıbsa, o xalq və həmin xalqı təmsil edən iqtidar, həqiqətən də, böyük alqışa layiqdir:

"İndi heç kim üçün sirr deyil ki, Azərbaycandakı bugünkü iqtidar xalqa söykənərək özünü tam təmin edən, milli iradəsinə söykənən, dayanıqlı və gündən-günə inkişaf edən bir dövlət qurub. Bu mənada, biz Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin idarəçiliyi dövründə bütün mümkün yüksəklikləri fəth edən Azərbaycanımızı təkcə Vətənimiz olduğuna görə deyil, həm də sözün əsl mənasında qüdrətli olduğuna görə sevirik. Bizim gücümüz təkcə enerji resurslarında, əlverişli coğrafiyada deyil, həm də bütün bunları real gücə çevirən Prezident İlham Əliyevin düzgün, milli maraqlara uyğun, prinsipial və ardıcıl siyasətindədir. Bunu görmək və başa düşmək üçün təbii sərvətlərlə zəngin olub öz gələcəyini qura bilməyən bir sıra ölkələrin nümunəsinə nəzər salmaq kifayətdir. Buna görə də istər daxildə, istərsə də xaricdə bəzi şəxslər və təşkilatlar tərəfindən Azərbaycana və mövcud hakimiyyətə qarşı irəli sürülən ittihamlar hədəfsiz olur, səmimi səslənmir və təbii ki, ictimaiyyət tərəfdən də qəbul olunmur.

Axı onlar iqtidarı nəyə görə tənqid edirlər? Məsələn, AXCP sədri Əli Kərimli öz "Facebook" səhifəsində iddia edir ki, bu günlərdə Bakıda növbəti dəfə start götürəcək "Formula-1" yarışları "zülmdür", kimlərinsə pul qazanması, hakimiyyətin təbliği üçün vasitədir. Sən demə, dünyada idman yarışları sırasında populyarlığına görə üçüncü sırada yerləşən "Formula-1" səbəbindən avtomobillərin şəhərin mərkəzində hərəkətinin məhdudlaşdırılması insanların "əsəbini tarıma çəkir". Təbii ki, bu özünü siyasətçi adlandıran, partiya rəhbəri hesab edən birisinə yaraşmayan, olduqca qərəzli yanaşmadır. Çox təəssüf ki, bəziləri müxalifətçilik missiyasının əsl mahiyyətini başa düşmür və anlamırlar ki, cəmiyyətdəki prosesləri, hadisələri yaxından izləmək imkanına malik və siyasi cəhətdən kifayət qədər yetkin olan vətəndaşlarımız davamlı şəkildə bədbinlik aşılayan, hər şeyi qara rəngdə, öz siyasi maraqlarına uyğun təsvir edən insanların səmimiyyətinə inanmır".

Ə.Həsənov vurğulayıb ki, "Formula-1" onlarla ölkədə nümayiş etdirilir, bütün dünyada 500 milyonluq izləyici auditoriyasına malikdir: "Deməli, yarım milyard insan Bakı şəhərinin müasir görünüşünü seyr edir, paytaxtımızla vizual tanış olur. Təbii ki, ildən-ilə ölkəmizə gələn turistlərin sayının artmasında bu yarışmanın böyük payı vardır. Bundan başqa, Bakı Şəhər Halqası Əməliyyat Şirkətində 113 daimi işçi çalışır, yarışlar yaxınlaşdıqca işə cəlb olunanların sayı artır və təxminən min nəfəri ötür. Əminəm ki, yüksək əmək haqqı alan mindən artıq insan, onların ailə üzvləri heç də Əli Kərimlinin bədbin iddialarını bölüşmürlər. Eləcə də yarışmanı maraqla izləyən on minlərlə vətəndaşımız da bu idman bayramından böyük zövq alır və heç də müvəqqəti tıxac haqqında düşünmür. Statistika göstərir ki, 2018-ci ildə "Formula-1" Azərbaycan Qran Prisində ümumilikdə 94 min tamaşaçı iştirak edib. Müxalifətin əsəbi gərginliyini və bu qədər sərt reaksiyasını başa düşmək olar: bu rəqəm "Məhsul" stadionuna toplaşanların sayından ən azı 30 dəfə çoxdur".



Prezidentin köməkçisi qeyd edib ki, "Formula-1" Azərbaycan Qran Prisi könüllülük hərəkatının inkişafına mühüm töhfə verir, gənclərimizin daxili potensialının açılması, onların öz bacarıqlarını nümayiş etdirməsi üçün əlverişli şərait yaradır: "Yenə də statistikaya əsasən, 2016-cı ildə bu yarışlara 5 min, sonrakı illərdə isə 3 min könüllü cəlb edilib. Sevindirici haldır ki, gənclərimiz könüllülük hərəkatına böyük həvəslə qoşulur və ötən 4 il ərzində könüllü olmaq üçün müraciət edənlərin sayı 50 min nəfəri ötüb.

Onu da qeyd etmək istərdim ki, ildən-ilə "Formula 1"i izləmək üçün ölkəmizə gələn xarici turistlərin, avtomobilsevərlərin sayında da ciddiartım müşahidə olunur. Builki yarışmanı izləmək üçün 78 ölkədən avtoidman həvəskarı Azərbaycana təşrif buyurub. Lakin bu, nisbi göstəricidir. Qeyd etdiyimiz kimi, bütün dünyaya nümayiş etdirilən Qran Prinin milyonlarla izləyicisi Bakının gözəlliyini seyr edir və onların bir qismi növbəti illərdə ölkəmizə turist kimi səfər edirlər".

Ə.Həsənov əlavə edib ki, 2016-cı ildə ilk "Formula-1"in şərtləri açıqlananda müxalifət bu yarışmanın təşkilinə 50 milyon dollar sərf olunacağını ciddi tənqid etdi: "Dərhal riyazi hesablamalar aparıldı: bu pula neçə qaçqının güzəranını yaxşılaşdırmaq, neçə müəllimin maaşını artırmaq, neçə aztəminatlı ailəyə əlavə yardım vermək olar və s. Təbii ki, istənilən siyasi qüvvə, siyasətçi xalqın güzəranı, ayrı-ayrı təbəqələrin ehtiyaclarının daha yaxşı ödənilməsinin yollarını axtarmalı və bu məsələdə öz mövqeyini bildirməlidir. Lakin öz siyasi maraqlarına uyğun yox, obyektiv, qərəzsiz, olduğu kimi."PricewaterhouseCoopers" (Pwc) beynəlxalq audit şirkətinin 2017-ci ilin sonlarında apardığı müstəqil araşdırmanın nəticələrinə görə, Bakıda keçirilmiş ilk iki "Formula-1" yarışı ölkə iqtisadiyyatına ümumilikdə 277.3 milyon dollar gəlir gətirib. Yəni yarışların iki ilinə yatırılan 100 milyon dollar iki dəfədən çox qazanc verib. O da bəllidir ki, əsas xərcləri - müvafiq avadanlıqlar alınması, bu və ya digər infrastruktur qurğuların quraşdırılması yarışın ilk ili həyata keçirilir, sonrakı illər xərclər getgedə azalır. Demək, bu və növbəti illərdə qalan qazanc daha da çox olacaq".

O bildirib ki, "Formula-1" həm də dövlətin nüfuzunun, prestijinin göstəricisi, qürur mənbəyidir: "Dünyada bu miqyasda tədbirlərə ev sahibliyi edə biləcək dövlətlərin sayı heç də çox deyil. Bunun üçün lazımi infrastruktura, çevik qərarlar qəbul edib həyata keçirmək əzminə, təhlükəsizliyi təmin etmək qüdrətinə malik olmaq gərəkdir. Azərbaycan isə Avropa Oyunlarının keçirildiyi ilk ölkə olmaqla IV İslam Həmrəyliyi Oyunlarına, çoxsaylı müxtəlif idman növləri ilə bağlı beynəlxalq yarışlara ev sahibliyi etməklə kifayət qədər böyük kütləvi tədbirləri təşkil etməyə, təhlükəsiz şəraitdə keçirməyə hazır olduğunu nümayiş etdirib.

"Formula-1" yarışının rəhbərliyindəki dəyişikliklər zamanı aparılmış təhlillər də göstərdi ki, Azərbaycan paytaxtı bu yarışların keçirilməsi üçün ən münasib məkanlardan biridir. Beləliklə, sadaladığımız faktlar da göstərir ki, "Formula-1" Azərbaycanın dünyada təbliği, insanların işlə təmin olunması, gənclərin ictimai faydalı fəaliyyətə cəlb edilməsi, ölkəyə turist axınının gücləndirilməsi, ən əsası isə, ölkənin iqtisadi mənafeyi baxımından olduqca faydalı tədbirdir. Buna görə də istər hakimiyyət, istərsə də bütövlükdə cəmiyyət tıxaca allergiyası olan biriki siyasi cığalın iddialarını qəbul etmir və etməyəcək də. Hamınızı bu gözəl idman yarışını seyr etməyə dəvət edirəm".

# İlk iki «Formula»ya qoyulan 100 milyon 277 milyon dollar qazanc gətirdi - radikallar nəyi və niyə hədəfləyir...

**Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənov "Azərbaycanın "Formula-1" yüksəkliyi, milli qürur hissi və Əli Kərimli kimilərin mədə təfəkkürü" adlı məqalə ilə çıxış edib. Məqalədə radikal müxalifətin bir neçə gündən sonra Bakıda start götürəcək "Formula-1" yarışları ilə bağlı səsləndirdiyi tənqidlərə sərrast cavab verilib:**

*"Yarışların xeyrini görməmək ancaq qərəzdən irəli gələ bilər"*

"...Axı onlar iqtidarı nəyə görə tənqid edirlər? Məsələn, AXCP sədri Əli Kərimli öz "Facebook" səhifəsində iddia edir ki, bu günlərdə Bakıda növbəti dəfə start götürəcək "Formula-1" yarışları "zülmdür", kimlərinsə pul qazanması, hakimiyyətin təbliği üçün vasitədir. Sən demə, dünyada idman yarışları sırasında populyarlığına görə üçüncü sırada yerləşən "Formula-1" səbəbindən avtomobillərin şəhərin mərkəzində hərəkətinin məhdudlaşdırılması insanların "əsəbini tarıma çəkir".

Əli Həsənov "Formula-1"in iqtisadi səmərəsizliyi ilə bağlı səslənən fikirlərin də konkret dəlillərlə əsassız olmasını sübut edib: "2016-cı ildə ilk "Formula-1"in şərtləri açıqlananda müxalifət bu yarışmanın təşkilinə 50 milyon dollar sərf olunacağını ciddi tənqid etdi. Dərhal riyazi hesablamalar aparıldı: bu pula neçə qaçqının güzəranını yaxşılaşdırmaq, neçə müəllimin maaşını artırmaq, neçə aztəminatlı ailəyə əlavə yardım vermək olar və s. Təbii ki, istənilən siyasi qüvvə, siyasətçi xalqın güzəranı, ayrı-ayrı təbəqələrin ehtiyaclarının daha yaxşı ödənilməsinin yollarını axtarmalı və bu məsələdə öz mövqeyini bildirməlidir. Lakin öz siyasi maraqlarına uyğun yox, obyektiv, qərəzsiz, olduğu kimi. "PricewaterhouseCoopers" (Pwc) beynəlxalq audit şirkətinin 2017-ci ilin sonlarında apardığı müstəqil araşdırmanın nəticələrinə görə, Bakıda keçirilmiş ilk iki "Formula-1" yarışı ölkə iqtisadiyyatına, ümumilikdə, 277.3 milyon dollar gəlir gətirib. Yəni yarışların iki ilinə yatırılan 100 milyon dollar iki dəfədən çox qazanc verib. O da bəllidir ki, əsas xərclər - müvafiq avadanlıqlar alınması, bu və ya digər infrastruktur qurğuların quraşdırılması yarışın ilk ili həyata keçirilir, sonrakı illər xərclər get-gedə azalır. Demək, bu və növbəti illərdə qalan qazanc daha da çox olacaq".

Hörmətli Əli Həsənov tərəfindən təqdim olunan faktlardan görünür ki, ölkəmizin evsahibliyi etdiyi idman yarışı təkcə maliyyə cəhətdən iki dəfədən çox qazanc gətirib. Belə olan təqdirdə radikal müxalif qüvvələr hansı məntiqlə bu yarışların ölkəmizə heç bir faydasının olmamasından danışırlar?

***Aydın Mirzəzadə:** "Azərbaycanın uğurlu inkişafı üçün atılan addımların hamısını onlar qara rəngdə görməyə çalışırlar"*




***Rəfael Becanov:** «Avroviziya», Avropa Oyunları zamanı da xüsusi təşkil edilmiş qaralama kampaniyalarının şahidi olduq»*

**Millət vəkili Aydın Mirzəzadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu, radikal müxalifətin ənənəvi taktikasından irəli gəlir:** "Onlar hesab edirlər ki, Azərbaycanda vəziyyət nə qədər acınacaqlı olarsa, onlar üçün hakimiyyətə gəlmək şansı bir o qədər çox olar. Onların bütün hədəfi hansı yolla olursa-olsun hakimiyyətə gəlməyə hesablanıb. Təbii ki, belə qüvvələrin hakimiyyətə gəlməyi o deməkdir ki, onlara maliyyə dəstəyi verən xaricdəki anti-Azərbaycan qüvvələrinin sifarişlərini yerinə yetirməlidirlər. Azərbaycanın uğurlu inkişafı, uğurlu sosial layihələrinin inkişafı üçün atılan addımların hamısını onlar qara rəngdə görməyə çalışırlar. "Formula-1" yarışlarını keçirmək üçün onlarla ölkə çalışır. İllərdir bu cəhdləri səmərə vermir. Azərbaycandakı infrastruktur hazırlığı və bu sahədə təcrübəsinin olması bizə bu yarışları keçirməyə imkan verir. Bunun ölkəmizin təbliği ilə yanaşı, büdcəmizə də xeyri var. On minlərlə turist gəlib burada dincəlir, valyuta xərcləyir. Bunun nəticəsində otel, xidmət biznesi yaxşı qazanc əldə edir. Bu, iqtisadiyyatımıza böyük investisiyadır. Qeyri-neft sektorunun inkişafıdır. Artıq dəfələrlə verilən hesabatlarda göstərilir ki, hər il o yarışlar Azərbaycana böyük gəlirlər gətirir. Ola bilər ki, birinci il infrastrukturun yaradılması üçün müəyyən xərc çəkildi. Amma sonrakı illərdə mənfəət götürüldü. Bu baxımdan da yarışların xeyrini görməmək ancaq qərəzdən irəli gələ bilər".

**Razi Nurullayevin rəhbərlik etdiyi müxalifyönümlü AXCP-nin funksioneri Rəfael Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkəmizdə keçirilən bu cür mötəbər beynəlxalq tədbirlərin qərəzli şəkildə qaralanması yolverilməzdir:** "Hörmətli Əli Həsənovun təqdim etdiyi hesablamalardan görünür ki, həmin auditi nüfuzlu beynəlxalq qurumlar aparıb. Yəni daxili hesablama deyil ki, şübhə üçün yer olsun. Çoxumuz məlumatlıyıq ki, bu tip yarışlar ölkəmizə müxtəlif istiqamətlərdən dividendlər gətirmiş olur. Bu, eyni zamanda, ölkənin beynəlxalq imicinin möhkəmlənməsinə xidmət edən aksiyalardan biridir. Biz analoi addımlarla çox rastlaşmışıq. Əsasən də ölkəmizin evsahibliyi etdiyi yarışlar ərəfəsində. "Avroviziya", Avropa Oyunları zamanı da xüsusi təşkil edilmiş qaralama kampaniyalarının şahidi olduq. Amma əminliklə deyə bilərəm ki, bu, bütünlükdə, ölkənin müxalif kəsiminin düşüncəsi deyil. Müxalifət adını inhisara almaq istəyən həmin radikal qrup nə varsa, hamısını qara rəngə boyamağı özlərinə təlqin ediblər. Məhz bu təlqinin nəticəsidir ki, onların dedikləri cəmiyyət və müxalifətin bütün spektri tərəfindən qəbul edilmir. Həmin dar qrup istər sosial şəbəkələrdə, istərsə də bəzi media orqanlarında Azərbaycanın uğurları ilə bağlı nə qədər antitəbliğat aparsalar da, heç bir nəticəyə nail ola bilməyəcəklər".

***Məhəmmədəli QƏRİBLİ***

# Türkiyə hökuməti Ermənistanın soyqırım iddialarını alt-üst edən yeni arqumentlər çıxardı...

**Ermənistan 1915-ci il arxivlərini açmağa qorxur, çünki bundan sonra bütün dünya həmin ildə baş verən hadisələrin "erməni soyqırımı" olmadığını, əksinə, Osmanlı imperiyasında müsəlman əhalinin erməni silahlıları tərəfindən soyqırımının həyata keçirildiyini biləcək. Bunu "Trend"ə Türkiyə hökumətindəki mənbə deyib.**



Hökumətdən bildiriblər ki, Ankara hələ 2005-ci ildə arxivlərin açılması və həmin hadisələrin araşdırılması üçün müstəqil komissiyanın yaradılması ilə bağlı İ.rəvana müraciət etmişdi: "1915-ci il hadisələri həqiqətən də "erməni soyqırımı olsaydı", İrəvan bu arxivləri açardı".

Qeyd olunub ki, ermənilərin 1915-ci il hadisələri ilə bağlı bütün iddiaları əsassızdır: "Türkiyə arxivlərində erməni silahlılarının xarici qüvvələrin dəstəyilə Ağrı, Qars, Ərzurum, Van və digər vilayətlərdə dinc əhalini öldürmələri, eləcə də Osmanlı imperiyası dövründə türk dövlət məmurlarını qətlə yetirmələri barədə minlərlə fakt var".

Bundan başqa, qeyd olunub ki, Türkiyədən fərqli olaraq, Ermənistanda hələ də türklərə qarşı nifrət və düşmənçilik qalır: "Ermənistanda bir türkün belə olmadığı bir vaxtda Türkiyədə ermənilər dinc şəkildə və heç bir problem olmadan yaşayırlar. Çoxmillətlilik Türkiyənin ən əsas dəyərlərindəndir".

Türkiyə hökumətindən təəssüflə bildiriblər ki, Ermənistan hələ də digər dövlətlərin əlində marionet olan lobbisinin girovu olaraq qalır: "Erməni lobbisinin Türkiyəyə qarşı bütün hərəkətləri ilk növbədə öz ölkələrində yoxsulluq içində yaşayan ermənilərin maraqlarına zərər vurur. Ermənistan hökuməti "soyqırım" sənayesində qazanc əldə etməkdənsə, xalqın gələcəyi barədə düşünməlidir".

Əlavə olunub ki, erməni lobbisi Qərb ölkələrinin parlamentlərinə təsir göstərərək hansısa yolla Ankaraya təzyiq etməyi düşünürsə, çox böyük səhv edir: "İrəvan qondarma "erməni soyqırımı" barədə iddialar irəli sürməklə Ankara ilə münasibətləri normallaşdıra bilməyəcək".

"Qarabağ məsələsini erməni xalqı həll etməlidir. Hər hansı bir hökumət və ya baş nazir yox". Məlum olduğu kimi, bu sözləri Ermənistanın baş naziri Nikol Paşinyan İrəvan Dövlət Universitetinin tələbələri ilə görüşü zamanı deyib. O bildirib ki, erməni xalqı nə vaxt ki, Qarabağ münaqişəsinin həlli yolunu dəqiq tapsa, o zaman digər formullar asanlıqla yerinə yetiriləcək:

# Paşinyanın qaçılmaz gördüyü Qarabağ iflasını erməni xalqının peysərinə yükləmək gedişi...

## "Dağlıq Qarabağ münaqişəsini xalq həll edirsə, o zaman baş nazir nəyə gərəkdir?"





***Aydın Quliyev:** "Paşinyan bilir ki, irəli yol yoxdur, geriyə mümkün yolların hamısı daha ağır məğlubiyyətdir"*

***Fikrət Sadıqov:** "Düşünürəm ki, Paşinyanın belə açıqlamaları danışıqları uzatmaq məqsədi daşıyır"*

"Ən qəribəsi isə budur ki, bizim bu barədə ictimai müzakirəmiz olmayıb. Mən baş nazir olanda bəziləri müsahibə verib deyirdi ki, kimsə satqınlıq edib, yaxud edəcək. Ancaq heç kim soruşmurdu ki, mən danışıqlara gedəndə bu söhbətlər niyə edilirdi? Çünki siz hamınız məni Qarabağ məsələsinə görə danışıqlara göndərəndə demədiniz ki, bu problemi bu cür həll edəcəksən. Bu gün erməni xalqı baş nazirinə demədi ki, al, bu sənin kağızın, onu əzbərlə, danışıqlara gir və məsələni bu yolla həll elə. Bu səbəbdən müxtəlif söz-söhbətlər gəzir".

Paşinyan bildirib ki, onun, əlbəttə, Qarabağ münaqişəsinin həlli ilə bağlı öz görüşləri var, ancaq bu məsələdə erməni xalqının rəyi də vacibdir: "Çünki bu məsələni o həll etməlidir, baş nazir və ya hökumət yox".

Paşinyan birinci dəfə deyil ki, bu cür açıqlamalar verir. Bundan əvvəl də o, Qarabağ münaqişəsinin həlli ilə bağlı müxtəlif məzmunlu açıqlamalar verib. Bir ara deyirdi ki, onun Dağlıq Qarabağdakı ermənilər adından danışmaq səlahiyyəti yoxdur. Bu səbəbdən, separatçı qurumun danışıqlarda tərəf olması ilə bağlı məntiqsiz fikirlər səsləndirdi. Buna nail ola bilmədi. Çünki onun bu istəyini nə Azərbaycan, nə də beynəlxalq qurumlar qəbul etmədilər. Görünən odur ki, Paşinyan nəticəsiz danışıqlar prosesini uzatmaq üçün müxtəlif uydurmalarla çıxış etməkdə qərarlıdır. Bu baxımdan, Paşinyan "Qarabağ məsələsini mən deyil, erməni xalqı həll etməlidir" söyləməklə nə demək istəyir?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bu, Paşinyanın növbəti populist açıqlamasıdır: "Eyni zamanda, demaqogiya xarakterli bir yanaşmadır. Dağlıq Qarabağ münaqişəsini xalq həll edirsə, o zaman baş nazir nəyə gərəkdir? Onda Paşinyan öz vəzifəsindən istefa versin və xalq münaqişəni həll etsin. Yəni səsvermə yolu ilə bu məsələyə aydınlıq gətirsin. Əmin deyiləm ki, erməni xalqının əksəriyyəti yoxsul vəziyyətdə yaşamaq istəyir. Münaqişənin həll edilməməsi Ermənistanın iqtisadi inkişafını ləngidir. Ona görə də Paşinyanın səsləndirdiyi fikir baş nazirə yaraşmayan bir hərəkətdir. Seçki yolu ilə seçilən dövlət başçısı məsuliyyətdən qaçmamalıdır. Danışıqlarda konkret mövqeyini bildir və bunun əsasında müzakirələr getsin. İlk növbədə başqa dövlətin ərazilərini işğaldan azad et. Yoxsa demaqogiya ilə məşğul olmaq lazım deyil. Bu cür populist açıqlamalar danışıqlarda müsbət nəticə əldə etməyə imkan vermir. Düşünürəm ki, Paşinyanın belə açıqlamaları danışıqları uzatmaq məqsədi daşıyır. Çünki onun münaqişənin həlli ilə bağlı qəti prinsipial mövqeyi yoxdur. O gah nala vurur, gah da mıxa. Paşinyan küçə dalğasında baş nazir olan bir şəxsdir. Görünür, belə populist açıqlamalarla ya Dağlıq Qarabağ münaqişəsini dondurmaq istəyir, ya da danışıqlar prosesini mürəkkəbləşdirmək istəyir. Ancaq bütün bunlar alınmayacaq. Çünki o, ilk növbədə, məsuliyyət daşıyan bir şəxsdir və tələb ona qarşı olacaq. Məsələ ondadır ki, erməni xalqı ondan müəyyən addımların atılmasını gözləyir. Ermənistan elə bir vəziyyətdədir ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi bu ölkə üçün yaxşı perspektiv vəd etmir".

Qarabağ həlli ilə bağlı Paşinyanın hər hansı məsuliyyətin altına girmək istəmədiyi ortadadır. Qəzetimizin baş redaktoru Aydın Quliyev bu versiyaya daha çox üstünlük verir: "Paşinyan yaxşı başa düşür ki, Qarabağ məsələsində bütün yollar dalana çatıb. İrəli yol yoxdur, geriyə mümkün olan yolların hamısı ağır məğlubiyyətdir.

Odur ki, Paşinyan dayandığı hazırkı nöqtədən geri çəkilmədən Qarabağ probleminin həllinin Ermənistan üçün ən az məğlubiyyətli variant sayır. Bunu isə erməni xalqının əli və dili ilə etmək istəyir. Bu məntiqlə ki, siz dediniz, mən də siz deyəni etdim. Baş nazir uduşsuz həll variantlarının məsuliyyətini öz üzərindən erməni xalqının üzərinə atmaq istəyir".

***Vidadi ORDAHALLI***

---

**ABŞ Dövlət Departamenti "Hizbullah"ın Azərbaycanda fəal olması ilə bağlı məlumat yayıb. Jurnalistlərə brifinq zamanı Dövlət Departamentinin Terrorizmlə Mübarizə İdarəsinin koordinatoru Nathan Sayles deyib ki, Livanın hərbi birləşməsi və siyasi partiyası "Hizbullah"ın təsir dairəsi Yaxın Şərqlə məhdudlaşmır, onların nümayəndələri bir sıra dövlətlərdə fəallıq göstərirlər:**

# PKK, "Əl-Qaidə", İŞİD gələ bilmədi, "Hizbullah" Azərbaycana gələ bildi (?)...



***Arzu Nağıyev:** "Zənnimcə, burada əsas məsələ İranla bağlıdır"*

***Tural İrfan:** "Bu kimi təşkilatların ölkəmizdə fəallıq cəhdləri olub, lakin belə halların qarşısı dərhal alınıb"*

"Məsələn, şəbəkənin nümayəndələri Azərbaycanda aşkar ediliblər. "Hizbullah" şəbəkəsi Yaxın Şərqlə məhdudlaşmır... "Hizbullah"ın keçmiş illərdəki fəallığı Azərbaycan, Bolqarıstan, Kipr, Nigeriya, Panama, Peru və Tailand kimi ölkələrdə ortaya çıxıb".

Əslində, koordinatorun hansı faktlara əsasən belə açıqlama verməsi çox maraqlıdır. Təbii ki, zaman-zaman Azərbaycanda terrorizmə bağlı olan bəzi elementlərin fəallaşması cəhdlərini görmüşük, lakin onların da qarşısı zamanında alınıb. Hətta həmin qruplaşmaların arasında belə "Hizbullah" nümayəndələrinə rast gəlinməməsi ABŞ-ın yaydığı xəbəri inandırıcı etmir. Onda isə ABŞ Dövlət Departamentinin "Hizbullah"ın Azərbaycanda fəal olması ilə bağlı söylədiklərinə ekspertlərin rəyini öyrənmək maraqlı olar.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Arzu Nağıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun tam şəkildə belə olduğu qənaətində deyil:** "Məlumdur ki, Azərbaycan terrorla mübarizədə daim ön planda olan dövlətlərdən biridir və bu istiqamətdə də xüsusi xidmət və hüquq-mühafizə orqanları daim mübarizə aparırlar. Hətta belə əlaqələr müəyyənləşəndə bununla bağlı müvafiq tədbirlər görülür. Maraqlısı odur ki, Azərbaycanın adını elə dövlətlərlə bir yerdə çəkirlər ki, çoğrafi cəhətdən belə uyğun gəlmir. Zənnimcə, burada əsas məsələ İranla bağlıdır. "Hizbullah"ın adı son vaxtlar Suriya, Rusiya və İranla daha çox çəkilir və məlum məsələdir ki, Böyük Britaniya tərəfindən də bu təşkilat terror təşkilatlarının siyahısına salınıb. Bu bəyanatı da məqsədyönlü saymaq olar. Buna görə də Azərbaycan heç vaxt öz ərazisində belə təşkilatların nümayəndələrinin olmasına şərait və ya imkan verməz. Dini radikal qurumlarla bağlı həbs edilən şəxslər arasında kimlərsə bu təşkilata üzv olduqlarını deyə bilərlər, lakin bu o demək deyil ki, onlar fəaliyyət göstərirlər. Bundan başqa, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində də separatçılar tərəfindən onların fəaliyyət göstərməsi inkar edilmir. Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu da nəzərə alsaq, ABŞ koordinatoru Nathan Saylesin bəyanatında müəyyən həqiqət ola bilər".

**İlahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, "Hizbullah"ın guya Azərbaycanda fəallaşması haqda deyilən fikirlərlə razılaşmır:** "Azərbaycanda təhlükəsizlik tədbirlərli kifayət qədər təmin olunur. Bu cür fikirlərlə hesab edirəm ki, hansısa xarici maraqlı qüvvələr guya Azərbaycanda belə bir halın olmasını əsas gətirərək kiməsə təsir göstərmək istəyirlər. Ola bilsin ki, bu fikir İran faktoruna görə səslənib. İranla qonşu dövlətik, "Hizbullah" da İrana bağlı bir təşkilatdır. Lakin bu əsas vermir ki, Azərbaycanda bu təşkilatın hansısa izinin olduğu bəyan edilsin. Təbii ki, zaman-zaman tək Hizbullah yox, digər bu kimi təşkilatların ölkəmizdə fəallıq cəhdləri olub, lakin belə halların qarşısı dərhal alınıb".

***Məhəmmədəli QƏRİBLİ***

**Bir sıra KİV-də Şəmkir rayonunun icra başçısı Alimpaşa Məmmədov barədə sərt ittihamların yer aldığı məlumatlar dərc edilib. Həmin məlumatlarda rayon sakinlərinə istinadən qeyd olunur ki, icra başçısını kabinetdə tapmaq mümkün olmur. İddia olunur ki, icra başçısı günün böyük hissəsini özünə aid qızıl balıq fermasında keçirir. Şəmkirlilər deyirlər ki, icra başçısının forel balığı təsərrüfatı ətraf kəndlərə ciddi ziyan vurur:**

# Şəmkirin icra başçısı barədə deyilənlər: uydurma və həqiqətlər...

## *Köməkçi Mahir Əliyev: "Buyurun gəlin rayona, özü də bizə demədən gəlin..."*

"Çünki balıq təsərrüfatının ucbatından Seyfəli, Abbaslı kəndlərinin camaatı Dəryaçayın natəmiz, çirkli, balıqların ifrazatının qarışdığı suyundan içməli olur. Dəryaçay ətrafındakı yaşayış massivlərində uşaqdan böyüyə hər kəs icra başçısının "Azərforel" ferması haqda məlumatlıdır. Kimdən soruşursan, deyir ki, "hə, müəllimin ferması o tərəfdədir". Amma başçı özünün fermasına asfalt yol çəkdirib, yola şlaqbaum qoydurub.

Alimpaşa Məmmədov Şəmkiri Dəryaçaydan idarə edir. Oradakı əhalinin içməli su anbarını özünün balıqçılıq fermasına çevirib. Su anbarında qızıl balıq cinsindən olan forel balığı bəslənir. "Azforel" balıqçılıq şirkətinin yetişdirdiyi balıqlara verilən kimyəvi tərkibli yem suya qarışır, balıqların təbii ehtiyacları da axarla Aşağı Seyfəli və digər kəndlərə çatır. Sakinlər balıq tullantıları və kimyəvi qarışıqlı su içmək məcburiyyətində qalırlar. Həmin kəndlərin sakinlərinin etirazlarını da A.Məmmədov eşitmir. Seyfəli kənd sakinləri deyirlər ki, icra başçısı rəsmən onları zəhərləməklə məşğuldur. Bir neçə dəfə icra nümayəndəsinə demişik, başçıya məktub yazmışıq, bizi sayan olmayıb. Kimin nəyinə lazımdır? Fikirləşirlər ki, cəhənnəmə camaat zəhərli su içsin, əsas Alimpaşa müəllimin balıqdan qazancıdır. Gözləyirlər ki, uşaqlarımız bu sudan bir gün xəstəlik tapsın, kimsə zəhərlənsin, ya dərizöhrəvi xəstəliyi yayılsın, onda əncam çəksinlər. Axı bizim başqa içməli su mənbəyimiz yoxdur. Niyə bunu nəzərə almırlar?"

Həmçinin, bildirilir ki, başçının vaxt keçirdiyi əsas yerlərdən biri də Şəmkirdən Gədəbəyə gedən yolun üstündə, Qaraboyludakı maralçılıq fermasıdır. İddia olunur ki, ferma formal olaraq başçının oğlu Adil Məmmədovun adınadır: "Bunu Şəmkirdə bilməyən yoxdur. A.Məmmədov Şəmkirə başçı gələndən sonra burada özünə nəhəng biznes qurdu, malmülk yaratdı. Onun oğlu həmin günlərdə MTN-də işləyirdi, indi işdən çıxıb, gəlib oturub Şəmkirdə, fermaya nəzarət edir. Danışanda da deyir ki, oğlum biznesmendir. Özününsə günü elə Dəryaçayda keçir".

Məlumatda, həmçinin, bildirilir ki, Şəmkir küçələrində antisanitariya hökm sürür. Bütün bu iddialara aydınlıq gətirmək üçün Şəmkir Rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıq. İcra Hakimiyyətinin rəsmi saytında göstərilən və bizim sualımızı cavablandırmaq səlahiyyəti olan 10-a yaxın nömrə ilə əlaqə saxladıq. Lakin onlardan heç biri bu barədə açıqlama vermək səlahiyyətlərinin olmadığını bildirdilər. Nəhayət, bir qədər sonra, çətinliklə olsa da, icra başçısının köməkçisi Mahir Əliyevlə əlaqə yarada bildik. Başçının köməkçisindən Alimpaşa müəllimlə bizi calaşdırmasını xahiş etdik. Aramızda olan dialoqu təqdim edirik:

- Salam, bizi icra başçısı ilə calaşdıra bilərsiniz?

- Salam, hazırda başçı məşğuldur, nə sualınız varsa mənə verin, cavablandırım.

-Hər halda, başçının özü ilə danışsaydıq daha yaxşı olardı. Çünki ittihamlar birbaşa ona aiddir. Başçı hazırda yerindədir?

- Başçı harada olmalıdır ki? Bəli, kabinetindədir.

- Yazırlar ki, rayon sakinləri Alimpaşa müəllimi kabinetində tapa bilmirlər...

- Harda yazıblar?

- Siz yazılanlarla tanış deyilsiniz?

- Xeyr!

- Bir çox KİV-də məlumat gedib ki, başçı günün əsas hissəsini özünə məxsus olan maral ferması və qızıl balıq saxlanan gölündə keçirir.

- Belə yazılar hər zaman yazıla bilər. Təbii ki, qərəzdən irəli gəlir. Cənab başçı hər cümə günü sakinlərlə şifahi qəbul keçirir. Mən rəqəmlərə baxıram, hər qəbulda 120-140 arası adam qəbul edilib. Hətta 182 nəfər qəbul edilən vaxtlar da olub.



- Rayonda olan maral ferması və qızıl balıq gölü həqiqətən başçıya məxsusdur?

- Bizim rayonumuzda nə ceyran saxlayırlar, nə də qızıl balıq.

- Rayonda süni göl də yoxdur?

- Xeyr

- Bəs deyirlər ki, belə yerlər var, hamısına da başçının əvvəl MTN-də çalışan oğlu nəzarət edir.

- Bu cür məlumatları bəyəm özünüz oxuyanda görmürsünüz ki, qərəzlidir? Əgər jurnalistsinizsə siz bunu məndən qabaq görməlisiniz. Heç olmasa yazılış qaydasına baxın. Mən oxumamışam, amma yazıdan verdiyiniz suallardan mən özüm üçün nəticə çıxarıram. Əsası olmayan sözlərə görə bunu dərindən araşdırmağa nə ehtiyac var?

- Hər halda, yayılan informasiyalara aydınlıq gətirilsə yaxşı olar. Bunun sizə heç bir ziyanı yoxdur...

- Buyurun, nə sualınız varsa, mən cavab verməyə hazıram. Biz iş başındayıq, işləyirik və xalqa xidmət edirik. Başçı da öz yerindədir. Cənab Prezidentin fərman və sərəncamlarını yerlərdə xalqa aşılayırıq.

- Deyirsiniz rayonda balıq saxlanan yer yoxdur. Bəs "Azforel" balıqçılıq şirkəti nədir?

- Belə bir MMC var, amma başçı ilə heç bir əlaqəsi yoxdur. Sadəcə rayon təsərrüfatımızdır. Ola bilər ki, başçı nə vaxtsa başqa müəssisələrə getdiyi kimi ora da gedib. Burda böyüdüləsi nə var ki? Ora dövlət əhəmiyyətli obyektdir. Regionlarda iş yerlərinin açılması üçün həyata keçirilən siyasətin nəticəsində meydana gəlib.

- Seyfəli kəndinin sakinləri iddia edirlər ki, həmin "Azforel"də balıqlara verilən kimyəvi tərkibli yemlərlə onlara verilən içməli suyu zəhərləyirlər...

- Mən balıq üzrə mütəxəssis deyiləm, amma bilirəm ki, balıq çox həssas heyvandır. Ona heç bir kimyəvi tərkibli yem vermək olmaz. Həmin dəqiqə ölər. Şüurlu insan bunu iddia etməz.

- Sonra qeyd edilir ki, Şəmkir küçələrində antisanitariya hökm sürür. MİS işçilərinə əməkhaqları verilmədiyindən küçələri zibil basıb.

- Mən bu sualınıza telefonla cavab verməkistəmirəm. Buyurun, gəlin rayona və bütün küçələri gəzin. Özü də bizə demədən gəlin. Bir dənə elə fakt aşkar etsəniz, yazılanlarla razılaşarıq.

- Maral ferması ilə bağlı nə deyə bilərsiniz, bəlkə nəsə var?

- Ferma yoxdur, sadəcə, ekoturizm məqsədilə yaradılan bir təsərrüfat var. Burda heç bir qazanc güdülmür. Çənlibel kəndində belə təsərrüfat var. Onun da başçı ilə heç bir əlaqəsi yoxdur.

- Rayonun Seyfəli və başqa kəndlərində su problemlərinin olması ilə bağlı İcra Hakimiyyətinə rəsmi şikayətlər daxil olubmu?

- Bir dənə də olsun belə şikayət yoxdur, hamısı cəfəngiyyatdır. Hər halda, bütün bunlar boşbekarçılıqdan meydana gəlib. Görürsünüz, bir nəfər həm sizə əziyyət verdi, həm də mənə. Kiminsə qərəzinə görə biz bu qədər vaxt ayırdıq. Mən sizə bir məsələni də deyim. Bir jurnalistin rayon barədə təsəvvürünün formalaşması üçün o mütləq gəlib nə varsa yerində görməlidir. Telefon vasitəsilə bunu təsvir etmək olmur. Nə bilim, bəlkə heç mənim dediklərimin bəzilərinə inanmadınız. Amma istənilən vaxt gəlib faktlarla yerində tanış ola bilərsiniz. Əgər dediyiniz şəkildə yazılıbsa, heç biri həqiqətə uyğun deyil.

Hörmətli başçının köməkçisinə təşəkkür etdik. Bütün suallarımıza konkret cavab verdiyi üçün həm mətbuat olaraq bizi qane etdi, həm də Prezident sərəncamı ilə vəzifəyə təyin edilmiş şəxsin barəsində yalan və şayiələrin baş alıb getməsinin qarşısını aldı.

*Məhəmmədəli*
*QƏRİBLİ*

Məlum olduğu kimi, ABŞ İrandan neft idxal edən 8 ölkəyə, yəni Türkiyə, Çin, Hindistan, Cənubi Koreya, İtaliya, Yunanıstan, Yaponiya və Tayvana tətbiq olunan müvəqqəti güzəşti ləğv etməyə hazırlaşır. Bu xəbərlərdən sonra dünya birjalarında neftin qiyməti kəskin bahalaşmaqda davam edir. Buna rəğmən, "Bloomberg"in xəbərinə görə isə, ABŞ rəhbərliyi İrandan neft alan ölkələrə tətbiq edilən və mayın 2-də başa çatacaq güzəştin müddətini artırmayacaq.

# ABŞ-da İran siyasi mühacirəti ilə gizli "inqilab müzakirələri" başladı...

*Neftə görə gələn ay ABŞ-İran gərginliyi od-alov mərhələsinə keçə bilər...*



Xatırladaq ki, ABŞ-ın İrana qarşı sanksiyalarının ikinci mərhələsi ötən il noyabrın 5-də qüvvəyə minib. Sanksiyalar çərçivəsində İrandan neft idxalını əhəmiyyətli dərəcədə azaldan Türkiyə, Çin, Hindistan, Koreya Respublikası, İtaliya, Yunanıstan, Yaponiya və Tayvana 180 günlük müvəqqəti güzəşt tətbiq olunub. Hesab edilir ki, İranın neft bazarından sıxışdırılması ilə "qara qızıl"ın qiyməti 100 dollarlıq həddə çatacaq. Amma İranın buna cavab olaraq atmağa hazırlaşdığı addım qiymətləri, bəzi ekspertlərə görə, ilk mərhələdə 150, daha sonra 200 dollarlıq həddə kimi yüksəldə bilər. Belə ki, İran ABŞ-ın gedişinə cavab olaraq yenidən Hörmüz boğazını bağlaya biləcəyini açıqlayıb. İslam İnqilabı Keşikçiləri Korpusunun admiralı Əlirza Tanqsirinin sözlərinə görə, Hörmüz boğazı beynəlxalq dəniz keçididir və o yoldan istifadəyə icazə verilməzsə, İran özünün strateji su yolunu bağlaya bilər: "İstənilən təhlükəyə qarşı İran sularını qorumaqdan çəkinməyəcəyik. Biz cavab tədbirləri görəcəyik". Qeyd edək ki, 2018-ci ilin sonunda İran prezidenti Həsən Ruhani də ABŞ-ın İrana sanksiyalar çərçivəsində öz neftini satmasına mane olacağı təqdirdə, Fars körfəzi regionundan neft ixracının qarşısını alacaqlarını bildirərək Vaşinqtonu təhdid etmişdi: "Bir gün Birləşmiş Ştatlar İranın neft ixracını bloklamaq qərarına gəlsə, Fars körfəzindən neft daşınmayacaq". Amma o vaxt ABŞ administrasiyasının İranla əməkdaşlığı davam etdirmək üçün 8 ölkəyə verdiyi 180 günlük güzəşt İranı Hörmüz məsələsində geri çəkilməyə razı sala bildi. İndi ABŞ-ın yeni mövqeyi Hörmüz boğazının bağlanmasını yenidən aktuallaşdırıb. ABŞ bu durumda bəyan edir ki, İrana Hörmüz boğazını bağlamağa heç vaxt imkan verilməyəcək.

Qeyd edək ki, Oman körfəzi ilə Fars körfəzi arasında yerləşən Hörmüz strateji əhəmiyyətli boğazdır. Bu boğaz neft ixrac edilən Fars körfəzindən açıq okeana yeganə dəniz çıxışıdır və dünyanın strateji cəhətdən ən mühüm nöqtələrindəndir. Dünya üzrə ixrac edilən neftin 20 faizi Hörmüz boğazı vasitəsilə daşınır. İranın özündən savayı ən böyük neft istehsalçılarından Səudiyyə Ərəbistanı özünün xam neft ixracatının 88%-i, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt və Qətər bütün ixracatını, İraq 99%-i Hörmüz boğazı üzərindən daşıyır. Hər gün müxtəlif ölkələrin 20-30 tankeri bu boğazdan keçir. Özü də adları çəkilən sonuncu ərəb ölkələri həm də ABŞ-ın yaxın müttəfiqləridir. Boğaz, həmçinin, körfəz ölkələrində hasil olunan neft və qazın ABŞ, Yaponiya və Avropa ölkələrinə çatdırılması üçün yeganə marşrut yoludur. ABŞ isə, yuxarıda qeyd olunduğu kimi, İranın boğazı bağlamasına yol verməyəcəyini açıq bəyan edir. Yaranmış vəziyyətdə Pentaqon yenidən Fars körfəzinə hərbi donanma göndərməyə hazırlaşır. Bu fonda İranın Fars körfəzi sularına yeni hərbi gəmilər, sualtı qayıqlar göndərməsinə dair məlumatlar səslənir. Beləliklə, gözlənilən budur ki, gələn ay Hörmüz boğazına görə ABŞ və İran arasında savaş başlaya bilər. Ən azı o baxımdan ki, ABŞ Fars körfəzinə daxil olan hərbi gəmiləri ilə manevrlər edib Hörmüz boğazının bağlanmasının qarşısını almağa çalışacaq ki, bu da İran tərəfindən birmənalı qarşılanmayacaq. Ekspertlərin fikrincə, belə vəziyyətdə hərbi qarşıdurma qaçılmaz olacaq.

Digər tərəfdən nəzərə almaq lazımdır ki, bəzi ərəb ölkələri, eləcə də İsrail İran məsələsinin birdəfəlik həlli üçün Vaşinqton və Tehran arasında məsələnin hərbi həlli istiqamətində fəal iş aparır. Gözlənir ki, ABŞ və İran arasında mümkün qarşıdurma zamanı onlar birinciyə hərtərəfli dəstək verəcək. Həlelik isə əsas qarşıdurmanın Fars körfəzində cərəyan etməsi aydın müşahidə olunur. Bununla yanaşı, ABŞ İrana təzyiq göstərmək üçün digər rıçaqlarını da işə salıb. ABŞ dövlət katibi Mayk Pompeonun İran-Amerika Cəmiyyətinin nümayəndələri ilə qapalı görüşü də bunun təsdiqi sayılır. Məlumata görə, Pompeo cəmiyyətin 15 lideri ilə Dallas şəhərindəki otellərdən birində görüşüb. İran diaspor nümayəndələri ilə görüş fonunda ABŞ mediası yazır ki, Vaşinqton Tehranda rejim dəyişikliyi üçün onlardan da faydalanmaq niyyətindədir.

***Nahid SALAYEV***

**Ukraynada seçkilərin nəticəsi artıq tam bəllidir. Hazırda prezident səlahiyyətlərini icra edən Poroşenko böyük fərqlə rəqibi Zelenskiyə uduzub. Komediya aktyoru olan Zelenski qələbəsini ikinci tur seçkilərində rəsmiləşdirə bildi. Maraqlıdır ki, Ukraynadakı seçkilərin gedişi zamanı həmin ölkədə olan bir çox diaspor fəalımızın Zelenskiyə rəğbətinin olduğunu müəyyən etdik.**

# Ukraynadakı Azərbaycan diasporu Zelenskinin gəlişini daha məqbul sayır, niyə...

***Eldar Tağıyev:** "Çünki diasporumuzun bir qolu Saakaşvili tərəfdarı idi"*

***Paşa İlisuyski:** "O, gücünü öz xalqının dəstəyindən aldı və 90-cı illərin oğru oliqarxlarını yaxınına buraxmadı"*

***Hikmət Cavadov:** "Mən bu günü çoxdan gözləyirdim"*



Ən azı, onların sosial şəbəkələrdəki mövqelərindən bunu aydın sezmək mümkün idi. Diaspor fəallarımızın seçkilərdə hansı mövqedə olduqlarını daha dəqiq müəyyənləşdirmək və Zelenskiyə rəğbətin niyə artıq olduğunu dəqiqləşdirmək üçün bu yöndə araşdırma aparmaq qərarına gəldik. Qeyd edək ki, Azərbaycanın özündəki Ukrayna vətəndaşları da seçkilərdə daha çox Zelenskiyə səs veriblər. Seçki komitəsinin sədri İlqar Həsənov bülletenlərin 100%-nin hesablanması nəticəsində seçicilərin 51,50%-nin səsini Vladimir Zelenskiyə verdiyini deyib. Ukraynanın Azərbaycandakı səfirliyində açılmış seçki məntəqəsində səsvermədə, ümumilikdə, 233 nəfər qatılıb.

Xatırladaq ki, seçkilərin ilk turunda Azərbaycanda yaşayan Ukrayna vətəndaşları Petro Poroşenkoya daha çox səs vermişdilər.

30 ildən artıqdır Ukraynada Azərbaycan diasporunu təmsil edən və fəal üzvlərdən olan Eldar Tağıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, hazırda Ukraynada yaşayan azərbaycanlıların böyük əksəriyyəti, fəaliyyətdə olan diaspor təşkilatlarımız bir araya gələrək "Ukrayna Azərbaycanlıları Şurası" adı altında birləşib fəaliyyət göstərirlər. Mənim özüm də həmin qurumda təmsil olunuram. Bilirsiniz ki, bizim diaspor nümayəndələrimizin böyük əksəriyyəti Ukrayna vətəndaşıdır. Bu da onlara imkan verir ki, müxtəlif partiyalara üzv olsunlar, eyni zamanda, seçkilərdə iştirak edib, istədikləri namizədə səslərini versinlər. Əslində, bu fəallıq bizi də çox sevindirir. Mən deməzdim ki, bu seçkilərdə azərbaycanlılar ucdantutma Zelenskiyə səs verdilər. Amma bu nisbətdə üstünlüyün Zelenskinin tərəfində olduğunu deyə bilərəm. Bunun da səbəbləri çoxdur. Çünki diasporumuzun bir qolu Saakaşvili tərəfdarı idi. Zelenskiyə olan məhəbbət oradan qaynaqlanır. Saakaşvilinin partiyası, birmənalı olaraq, Zelenskini dəstəklədiyi üçün, bizim soydaşlarımız arasında da bu seçim üstünlük təşkil etdi".

**Eldar Tağıyevin sözlərinə görə, Zelenskinin qələbəsini şərtləndirən faktorlar heç də bizim diasporun verdiyi səslə bağlı deyil:** "Rusiya ilə iqtisadi əlaqələrin kəsilməsindən əziyyət çəkən əhalinin mövcud hakimiyyətə qarşı qəzəbindən məharətlə istifadə edildi. Mən Ukraynanın Rusiya ilə yaxınlaşmasını istəmirəm. Səbəbləri aydındır. Amma proseslərə demokratiyanın qələbəsi kimi baxanları düşünməyə dəvət edirəm. Yadınızdadırmı, sovetlərin dağıldığı ilk illərdə bütün seçkilərdə kommunistlər qalib gəlmək şansını saxlayırdılar. Onları hansı yollarla (Rusiyada Jirinovski kimi təlxəklər belə peyda oldu!) zəiflədib heçə çıxardılar? Bu gün Rusiyaya qarşı barışmaz kimi görünən prezidentin belə bir komiklə əvəz edilməsi əhali üçün düşünülmüş yeni oyundur, hələlik bütün narazı qüvvələri qane edən. Hədəf Ukrayna və Rusiyanın yollarının kəsişməsi ehtimalını yox etməkdir, demokratiya pərdəsi altında".

**Nisbətən gənc nəslin nümayəndəsi olan diaspor nümayəndələrimiz isə Zelenskiyə dəstək verirlər. Tanınmış diaspor nümayəndəsi Paşa İlisuyskinin sözlərinə görə, bu dəstəyi Zelenskiyə yalnız onlar verməyib:** "Ukrayna parlamenti, hökuməti, ordusu və bütün siyasi partiyaları ağız dolusu Zelenskiyə dəstəyini bildirir. Bundan əlavə, Avropa liderləri, ABŞ, Kanada, beynəlxalq təşkilatlar, MDB ölkələri və hətta Ukraynaya düşmənçə yanaşan Putin və Medvedyev belə öz rəğbətlərini dilə gətirirlər. Bilirsiniz niyə hamı birdən-birə Zelenskiyə bu qədər önəm verir? Ona görə ki, o, demokratik şəkildə öz xalqının dəstəyini qazandı! O, gücünü öz xalqının dəstəyindən aldı və 90-cı illərin oğru oliqarxlarını yaxınına buraxmadı".

**Digər diaspor fəalı Hikmət Cavadovun da Zelenskini dəstəklədiyi məlumdur. Onunla əlaqə saxlasaq da, danışmaq imkanının olmadığını bildirdi.** Ancaq sözügedən diaspor fəalı Zelenskinin qələbəsinə münasibətini açıq formada ifadə edib. O, sosial şəbəkədəki hesabında qalib gələn namizədin fotosunu paylaşaraq "Mən bu günü çoxdan gözləyirdim" sözlərini yazıb.

Adının çəkilməsini istəməyən bir diaspor nümayəndəmiz bizə bildirdi ki, Ukraynadakı azərbaycanlıların Zelenskiyə böyük rəğbət bəsləməsinin kökündə duran faktorlardan biri də Poroşenkonun yanlış kadr siyasətidir. Ən başlıcası isə, Ukraynanın erməni əsilli daxili işlər naziri Avakovun azərbaycanlılara bəslədiyi qərəzli münasibətdir: "Araşdırsanız görərsiniz ki, bir çox diaspor fəalımıza müəyyən adamların sifarişi ilə məhz Avakovun təhriki ilə cinayət işləri qaldırılıb. Bu səbəbdən də Ukrayna azərbaycanlılarının böyük əksəriyyəti bu qərəzdən yaxa qurtarmaq üçün Poroşenkoya yox, Zelenskiyə səs verdi".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanla PKK yeni terror təşkilatı qurur...

*Suriya ermənilərinin Qarabağda terror təlimi keçdiyi sübut olunur...*

**Tarixində daim terrorla sıx bağlılığı olan Ermənistan son dövrlərdə bu istiqamətdə fəaliyyətini daha da genişləndirməyə hazırlaşır. Belə görünür ki, yaxın tezlikdə Ermənistan dünya miqyasında terrorçuların əsas dayaq məntəqələrindən birinə çevriləcək. Özü də proseslərin gedişi göstərir ki, Ermənistan ərazisinə təkcə xaricdən olan terrorçu qruplar axmır.**




Müxtəlif terrorçu qrupların tərkibinə qoşulan ermənilərin sayında da ciddi artım qeydə alınır. Həmin terrorçuların çox vaxt ya Ermənistanda, ya da işğal edilmiş Azərbaycan ərazilərində məskunlaşması barədə də məlumatlar mövcuddur. Məhz belə bir vaxtda yayılan məlumata görə, Suriyada PKK terror təşkilatının tərkibində ermənilərdən ibarət yeni terror qrupu yaradılıb. Məsələ ilə bağlı "avropa.info" portalının məlumatına görə, qrupun tərkibinə Ermənistandan Suriyaya gedən daşnak-ermənilər və Suriya ərazisində yaşayan bəzi erməni qruplar qoşulub.

PKK-nın tərkibində qurulan bu erməni qruplaşma terror təşkilatının Suriya qolu olan YPG-yə tabe olacaq.

Qeyd edək ki, PKK-nın Suriya qolu olan YPG ABŞ tərəfindən Türkiyəyə qarşı aktiv şəkildə istifadə olunur. Suriya torpaqlarının bir hissəsini işğal edən PKK və YPG-yə qarşı ötən il Türkiyə Silahlı Qüvvələri tərəfindən "Zeytun budağı" adlı əməliyyat həyata keçirilib. Nəticədə Afrin bölgəsi terrorçulardan azad olunub. Bundan başqa, Suriyadakı vətəndaş müharibəsi başlandığı andan etibarən 13 mindən artıq suriyalı erməninin Azərbaycanın işğal olunmuş Qarabağ ərazisinə gətirildiyi də məlumdur.

Eyni zamanda, terror təşkilatı PKK-nın işğal olunmuş Qarabağ ərazisində təlim düşərgələrinin olduğu haqda məlumatlar da dünya mətbuatında yayılmaqdadır. Ehtimal etmək olar ki, Suriya ərazisində qurulan YPG-nin nəzarətində olan erməni qruplaşması qanunsuz yollarla təkcə Ermənistana yox, elə Qarabağa da gətirilə bilər. Bu prosesdə Ermənistan özü kifayət qədər maraqlı tərəf qismində çıxış edir.

Digər tərəfdən xatırladaq ki, Ermənistan Suriyada sıxışdırılmış İŞİD üçün də maraq obyektdir. Bunu bir müddət əvvəl Rusiya Daxili İşlər Nazirliyinin Ekstremizə qarşı Mübarizə Baş İdarəsinin rəisi Oleq İlyinıx də təsdiq edib. O qeyd edib ki, Suriya və İraqda məğlubiyyətə uğradıldıqdan sonra İŞİD terror qruplaşması maraqlarını Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğız Respublikası və Ermənistan ərazisinə doğru hərəkət etdirir. Onun sözlərinə görə, İŞİD terror qruplaşması ümumdünya terror şəbəkəsi yaradılması üzrə planlarını həyata keçirmək istəyir: "Xilafətin Suriya və İraqda strateji məğlubiyyət alması onların maraqlarının Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğız Respublikası və Ermənistan ərazisinə doğru hərəkət etməsinə gətirib çıxaracaq". Xatırladaq ki, İŞİD-ə qədər ASALA, PKK və digərləri Ermənistanda özünə yer edə bilib. İndi İŞİD də Ermənistana üz tutmaq niyyətindədir. burada bir daha xatırladaq ki, Rusiya Suriyada İŞİD-in məhv edilməsindən sonra terrorçuların Rusiyadan intiqam almağa çalışacaqlarını yaxşı bilir. Bu baxımdan rus hərbçiləri Ermənistanda İŞİD terrorçuları üçün olduqca asan hədəf ola bilər. İŞİD-ə sadiq qalan ermənilərin mövcudluğu terrorçuların müəyyənləşdirilməsi və məhv edilməsini daha da çətinləşdirir. İndiki vəziyyətdə isə ermənilərin PKK ilə də işbirliyini genişləndirməsi və bu qruplaşmanın tərkibində çoxsaylı erməninin yer alması vəziyyəti bir qədər də mürəkkəbləşdirir.

Belə görünür ki, bu vaxta qədər PKK-ya qucaq açan Ermənistan indi onun tərkibini elə ermənilərin hesabına da genişləndirməyə çalışır. Bu isə təkcə Azərbaycana yox, Türkiyəyə, hətta Yaxın Şərqdə öz planları olan Rusiyaya da müəyyən təhdidlər yaradır. Xatırladaq ki, PKK qruplaşması 30 ildən çoxdur Türkiyənin ərazi bütövlüyü və suverenliyinə qarşı çıxır, təhlükəsizliyinə təhdid yaradır, bu istiqamətdə terror fəaliyyəti ilə məşğul olurlar. Ümumiyyətlə, PKK-çıların Ermənistana keçməsi, yaxud ora toplaşması təsadüfi deyil. Çünki həm PKK-çılar, həm də Ermənistan Türkiyə və Azərbaycanın düşmənidir. İndiki durumda PKK öz çirkin niyyətlərini həyata keçirmək üçün isə ən əlverişli ərazi kimi Ermənistanı görür. Bundan əlavə, Ermənistan PKK-nı terrorçu qruplaşma olaraq tanımır. Yeri gəlmişkən, erməni lobbisi və Ermənistanın kürd terrorçularına dəstək verməsi və onları müdafiə etdiyi barədə mövqeyi də tərəflər arasında sıx işbirliyinin göstəricisi sayılır. Ümumiyyətlə isə, PKK ilə ermənilərin terror təşkilatı ASALA arasında əlaqələr ötən əsrin 80-ci illərindən formalaşmağa başlayıb. ASALA onlarla türk diplomatına qarşı sui-qəsdlər həyata keçirən vaxtlarda PKK Türkiyənin daxilində türkləri qanına qəltan edirdi. Sonradan Ermənistan müstəqillik qazandıqdan sonra bu münasibətlər daha da yaxınlaşdı. Həmin dövrdə PKK-nın Ermənistana hərtərəfli yardım etməsi barədə çoxsaylı məlumatlar var. Ermənilərin və erməni diasporunun yüz ildir beynəlxalq ictimaiyyətə sırımağa çalışdığı qondarma" soyqırım" iddialarına PKK və ona yaxın dairələr tam mənada dəstək verib. İndi isə tərəflər arasında artan işbirliyi fonunda Ermənistan PKK-nı yeni üzvlərlə də təmin edir.

***Tahir TAĞIYEV***

# Ermənilərin Paşinyanın bir ilinə baxışı - "Sarkisyan getdi, Paşinyan gəldi, problemlər qaldı..."

***Ramil Hüseynov:** "Əvvəl ölkədə mövcud olan problemlər, demək olar, yerindən tərpənməyib"*

**Ermənistanda "məxməri inqilab"ın 1 ili tamam oldu. Düz bir il əvvəl, aprelin 23-də Ermənistanın baş naziri Serj Sarkisyan xalq etirazları nəticəsində vəzifəsindən istefa verib. Onun yerinə Ermənistan "məxməri inqilabı"nın lideri Nikol Paşinyan baş nazir vəzifəsinə gətirilib.**



*"Bu səbəbdən Ermənistan cəmiyyətində Paşinyanla bağlı yaranan bədbin rəy hər keçən gün daha da böyüyür"*

Ermənistanda 2018-ci il dekabrın 9-da keçirilən növbədənkənar parlament seçkilərində Nikol Paşinyanın rəhbərlik etdiyi "Mənim addımım" bloku qələbə qazanıb. S.Sarkisyanın rəhbərlik etdiyi sabiq hakim Ermənistan Respublikaçı Partiyası isə, ümumiyyətlə, yeni parlamentdə təmsil olunmayıb.

Ötən bir ildə Ermənistanda hansı dəyişikliklərin baş verdiyi barədə erməni cəmiyyətində müzakirələr gedir. Sosial şəbəkələrdə, müxtəlif internet resurslarında bununla bağlı müzakirələrdə yaranan rəy ondan ibarətdir ki, hakimiyyət dəyişsə də, ölkənin üzləşdiyi sosial-iqtisadi problemlər dəyişməyib. Konkret belə yazılar və deyilir: "Sarkisyan getdi, Paşinyan gəldi, problemlər yerində qaldı". Yəni bu sahədə mövcud problemlər necə var, elə də qalıb. Faktiki olaraq, sözügedən problemlər həll edilməyib. Ölkədə iqtisadi inkişaf dinamikası yoxdur. Əhalinin miqriyasıyası bir il əvvəl də var idi, bu gün də var. Paşinyana qədər də ölkədə doğumun səviyyəsi aşağı idi, ondan sonra da demoqrafik sahədə eyni vəziyyət hökm sürür. Əhali sürətlə yaşlaşır. Korrupsiya əsas problem olaraq qalmaqdadır. Ölkə hakimiyyət tərəfindən vəd edilən xarici sərmayələri gözləyə-gözləyə qaldı. Bunsuz isə erməni iqtisadiyyatında köklü şəkildə islahatlar etmək, onu irəli aparmaq mümkün deyil. Dövlət büdcəsinin optimallaşdırılmasına və xərclərin azaldılmasına yönəlmiş islahatlar nəticəsində minlərlə yeni işsiz ordusu yaranıb. Dövlət borcu artmaqda davam edir. Artıq erməni cəmiyyətində belə bir rəy yaranıb ki, Paşinyan korrupsiyanın, miqrasiyanın qarşısının alınması, yoxsulluğun, işsizliyin aradan qaldırılması üçün sehirli çubuq tapmalıdır. Bir növ, Paşinyanın fəaliyyətinə bu cür kinayə və ikrahla yanaşırlar.

Göründüyü kimi, Ermənistanda hakimiyyətlər dəyişilsə də, ümumi heç bir müsbət nəticə əldə olunmayıb. Ölkə əvvəlki problemləri ilə baş-başa qalıb. Bütün bunlarla yanaşı, Paşinyanın 1 illik hakimiyyəti ilə bağlı yaranan bədbin rəy nə ilə bağlıdır?

**Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynov bunu bir sıra faktorlarla əlaqələndirdi:** "Problem ondadır ki, 1 il əvvəl Ermənistanda 20 il hakimiyyətdə olan bir klan devrilsə də, bütövlükdə, bu, ölkənin iqtisadi-sosial həyatında müsbətə doğru nəsə dəyişməyib. Erməni cəmiyyəti də bütün bunların fərqindədir. Küçə dalğasında hakimiyyətə gələn Paşinyan ilk əvvəl inanılmaz vədlər verirdi. O müəyyən mənada yeni fiqur olduğuna görə bir çoxlarının ondan gözləntiləri böyük idi. Bəziləri hesab edirdilər ki, Saakaşvilinin Gürcüstan üçün gördüyü işləri Paşinyan Ermənistan üçün edəcək. Ancaq çox keçmədi ki, Paşinyanın dövlət idarəçiliyində təcrübəsizliyi üzə çıxdı. Paşinyan əvvəl tərəfdarlarını inandırmışdı ki, Qərbdən böyük həcmdə maliyyə vəsaiti cəlb edəcək. Bununla bağlı bir sıra Avropa ölkələrinə səfərlər etdi, müxtəlif beynəlxalq tədbirlər çərçivəsində iri biznes dairələri ilə görüşlər keçirdi. Ancaq heç bir tərəf əlverişsiz mövqedə olan Ermənistana istədikəri vəsait vermədi. O ölkədə islahatlar hansısa müsbət effekt verir ki, həmin ölkənin maliyyə ehtiyatları var. Ermənistanda bu olmadığı üçün, Paşinyanın bəzi islahatları ciddi sosial narazılıqlara səbəb oldu. Bu gün Ermənistanda nə xarici sərmayə, nə də digər iqtisadi faktorlar özünü göstərir. Bu səbəbdən əvvəl mövcud olan problemlər, demək olar, yerindən tərpənməyib. Ona görə də Ermənistan cəmiyyətində Paşinyanla bağlı yaranan bədbin rəy hər keçən gün daha da böyüyür".

***Cəmilə QARAYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Azərbaycan Qarabağ sülh prosesində Rusiyanı, Türkiyəni, İranı və Avroittifaqı eyni mövqeyə gətirə bildi - Ermənistanın təkliyi daha aydın görünür...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın indiki mövqeyi bu ölkənin nə sülhə, nə də hərbə hazır olduğunu göstərir. Belə ki, İrəvan konfliktin dinc müstəvidə həlli üçün hələ də konstruktiv addımlar atmağa tələsmir. Eyni zamanda vasitəçi ölkələrə, bütün dünyaya da Azərbaycanın savaş varinatından istifadə etməsinin qarşısını almaq üçün minnətçi düşüb.**

Amma hadisələrin inkişaf axarı göstərir ki, Ermənistanın nə sülh, nə hərb variantına qaçması sonda ikincinin reallaşmasına səbəb olacaq. Çünki Azərbaycanın artıq Ermənistanın Qarabağ məsələsində şıltaqlığına dözmək niyyəti yoxdur.

Konfliktin güc yolu ilə çözülməsinin Ermənistan üçün faciəvi sonluqlara gətirib çıxaracağına dair indiyə qədər düşmən ölkəyə kifayət qədər xəbərdarlıqlar edilib. Bunu ermənilərin özləri də yaxşı başa düşür. Elə bu səbəbdəndir ki, Azərbaycanda hansısa hərbi hərəkətlilik, təlimlər Ermənistanda dərhal böyük təşvişə yol açır. Yeri gəlmişkən qeyd edək ki, tezliklə ölkəmizdə keçiriləcək Türkiyə-Azərbaycan döyüş atışlı birgə taktiki təlimi də Ermənistanda qorxu ilə qarşılanıb. Erməni mediasında gedən yazılarda birgə təlimə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələrinin cəlb ediləcəyi bildirilib. Qeyd edilir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi ətrafında qeyri-müəyyənliyin davam etdiyi və yeni müharibə ehtimalının yüksək olduğu bir vaxtda sözügedən təlimlər Azərbaycan ordusunun döyüş qabiliyyətinin artmasına ciddi təsir göstərəcək.

Xatırladaq ki, Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, təlimlər mayın 1-dən 3-nə kimi keçiriləcək. Təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərini və qarşılıqlı anlaşmasını yüksək səviyyədə saxlamaqdır. Eyni zamanda, faktdır ki, Azərbaycan-Türkiyə münasibətləri kifayət qədər yüksək səviyyədədir, iki qardaş dövlət hərbi-texniki sahədə dərin əməkdaşlığa malikdir. Ordumuzun hərbi parkı həm də Türkiyə silah-sursatı və döyüş texnikası hesabına komplekləşdirilir. Ortaq hərbi təlimlər, təcrübə mübadiləsi də prosesə əlavə mühüm töhfələr verir. Belə vəziyyətdə Azərbaycan və Türkiyənin birgə addımları, o cümlədən də hərbi təlimləri Ermənistanı getdikcə daha çox narahat edir. Çünki belə təlimlər həm də işğalçı Ermənistana növbəti ciddi mesajdır. Azərbaycan xalqının heç vaxt işğal rejimi ilə barışmayacağı barədə səslənən fikirlərsə müharibənin bitmədiyi haqda düşmən tərəfə və onun havadarlarına daha bir siqnaldır. İşğal rejimi davam etdikcə, belə təlimlərə də, sözsüz ki, ara verilməyəcək. İstənilən halda, iki qardaş ölkənin ortaq təlimləri Ermənistan üçün çox şey ifadə edir. Eyni zamanda, də, təlimlərin hədəflərindən biri kimi əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaq da çox önəmlidir. Bu o deməkdir ki, real döyüş əməliyyatları zamanı Türkiyənin ölkəmizə hərbi dəstəyi, ən azından, bu formada özünü göstərə bilər. Məhz bu da İrəvanı çox ciddi narahat edir.

Digər tərəfdən, qardaş Türkiyənin Rusiya ilə dərinləşən münasibətləri də Ermənistan üçün müsbət heç nə vəd etmir. Moskva, ən azı, həyati əhəmiyyət kəsb edən geosiyasi maraqları üzündən Ermənistana görə Türkiyə ilə hansısa qarşıdurma yaşamaq niyyətindən indi çox uzaqdır. Ümumiyyətlə, Ermənistanı qıcıqlandıran əsas məsələlərdən biri Azərbaycanla yaxın olan Türkiyənin Rusiya ilə əməkdaşlığının genişlənməsidir. Çünki Ermənistan elə hesab edir ki, Türkiyə və Rusiya yaxınlaşdıqca, Ankara Dağlıq Qarabağ probleminin həllinə təsir imkanını genişləndirir. Ümumiyyətlə, qardaş Türkiyə problemin nizamlanmasına ciddi təkan verə bilər. Bu mənada, Azərbaycan Türkiyə-Rusiya yaxınlaşmasında maraqlı tərəf kimi çıxış edir, sözügedən məsələyə öz töhfələrini verir. Rusiyalı ekspert Maksim Şevçenko bu fonda qeyd edir ki, Dağlıq Qarabağ münaqişəsi, ümumiyyətlə, regionun taleyi üç qonşu dövlət olan - Rusiya, Türkiyə və İran tərəfindən Avropa İttifaqının vasitəçiliyi ilə həll olunmalıdır: "Yəni kim Qafqazın tranzit dəhlizi olmasında maraqlıdırsa, məhz onlar regionun taleyini həll etməlidir". Ekspert burada onu da diqqətə çatdırır ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı prosesdə haqlı tərəfdir: "Rəsmi Bakı münaqişənin ədalətli yolla həllini istəyir. İstəyir ki, işğal altındakı torpaqları azad olunsun, işğala son qoyulsun. Yalnız bundan sonra iki ölkənin xalqları arasında dialoq, qarşılıqlı anlaşma baş tuta bilər. Ümid edirəm ki, Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü ağıllı siyasət milliyyətçi ehtiraslı siyasətin müşahidə olunduğu Ermənistan tərəfi üzərində qələbə çalacaq. Ümid edirəm ki, hər iki tərəfdən olan müdrik insanlar ümumi dil tapacaq və Cənubi Qafqaza bu və ya başqa yolla sülh gələcək".

Şevçenkonun fikrincə, Qarabağ münaqişəsi təkcə Azərbaycan xalqı üçün faciə deyil: "Ermənilər üçün də faciədir. Onlar da vətənlərini itiriblər. Bakıda, Sumqayıtda və digər şəhərlərdə yaşayan erməniləri nəzərdə tuturam. Azərbaycanlılar isə min illərlə yaşadıqları Qarabağı və İrəvanı, Zəngəzuru itirdilər. Ona görə də hesab edirəm ki, sülh təşəbbüsü göstərən Bakının mövqeyi Qarabağ münaqişəsinin dinc yolla həllinə aparan yeganə yoldur. Bu yola alternativ yoxdur. Ermənistan inadkarlıq etməməlidir. Onlar fikirləşirlər ki, 1992-ci il müharibəsinin nəticələri qorunub saxlanılsın, tutduqları Azərbaycan ərazilərini özlərində saxlasınlar. Bu, öz-özlüyündə absurd mövqedir. Ermənistan bu mövqedən əl çəkməlidir. Mənə elə gəlir ki, Ermənistan Avropa, demokratik və müasir ölkə prinspilərindən danışırsa, o zaman bu demokratiya hamı üçün olmalıdır. Bu demokratiya sözdə deyil, əməldə olmalıdır. Demokratiya ilk növbədə insan hüquqlarının qorunması və ona hörmət olunması deməkdir. Ona görə də Ermənistan torpaqlarını itirən insanların hüquqlarına hörmət etməlidir".

Rusiyanın Qarabağla bağlı danışıqlar prosesində təşəbbüsü yenidən ələ alması haqqında fikirlərə münasibət bildirən M.Şevçenko deyib ki, Rusiyanın mövqeyi olmadan Qarabağ münaqişəsi ümumiyyətlə həll oluna bilməz: "Rusiya dünya nəhəngləri arasında bu münaqişənin sülh yolu ilə həll olunmasında daha çox maraqlıdır. Çünki Rusiya həm münaqişə tərəfləri ilə qonşudur, həm də bu ölkədə böyük Azərbaycan və Ermənistan diasporu var. Ona görə də Rusiya bu münaqişədə əsas maraqlı tərəfdir. Rusiya Qarabağ münaqişəsinin güc yolu ilə həllinin əleyhinədir. Çalışır ki, münaqişə dinc, sülh yolu ilə həll olunsun. Rəsmi Moskvanın verdiyi təkliflər də məhz müharibənin qarşısını almağa yönəlib. Çünki Qarabağda yeni müharibə Rusiyanın ərazisinə də təsir edəcək. Dağıstan, Şimali Qafqaz bir-birinə qarışacaq. Krasnodar diyarı, Rostov vilayətində çoxlu sayda erməni yaşayır. Rəsmi Moskva bütün bu məqamları çox yaxşı başa düşür. Ona görə də ancaq sülhə aparacaq həll yolunu dəstəkləyir". Hesab edilir ki, Türkiyənin də prosesdə iştirakına münbit şərait yaratmaqla Moskva sülhün daha tez əldə edilməsinə nail ola bilər. Bu mənada, Ermənistan üçün Türkiyə-Rusiya yaxınlaşması ən xoşagəlməz ssenaridir. Ekspertlər də bildirir ki, Rusiya ilə Türkiyə arasında münasibətlərin yaxşılaşması ciddi geosiyasi dəyişikliklərə də rəvac verir. O baxımdan ki, bu iki böyük dövlətin yaxınlaşması regional və qlobal səviyyədə hiss ediləcək dəyişikliklərə səbəb ola bilər. İlk növbədə bu, Yaxın Şərq və Cənubi Qafqazda maraqlı geosiyasi proseslərin meydana gəlməsini stimullaşdırar.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycandan fərqli olaraq, Ermənistan iki nəhəng ölkənin münasibətlərinin belə sürətli inkişafından dəhşətli dərəcədə narahatdır. Erməni analitik Ruben Mirzoyan vurğulayır ki, Türkiyə artıq Rusiya üzərindən də Ermənistanın mövqelərini sarsıtmağa, Qarabağ məsələsində Azərbaycanın maraqlarının təmin edilməsinə çalışacaq: "Bu prosesin qarşısını almaqda biz getdikcə daha böyük çətinliklər yaşayacağıq". Düşmən tərəfi narahat edən başlıca məqamlardan biri budur ki, Türkiyə ilə yaxınlaşma fonunda Kreml Ermənistanın təhlükəsizliyinin müdafiəsində əvvəlki siyasətindən də əl çəkə bilər. Erməni ekspertlər hesab edirlər ki, bu, daha çox, geosiyasi əhəmiyyətli Türkiyə və Azərbaycan faktoru ilə bağlıdır. İndilikdə isə real vəziyyətin təhlili göstərir ki, Ankara ilə Moskvanın yaxınlaşması Cənubi Qafqaza təsirsiz ötüşməyəcək. Ermənistan bundan narahat olduğundan, onun destruktiv mövqe tutmaqda davam etməsi gözləniləndir. Amma bunun Ankara ilə Moskvanın əməkdaşlığına təsir göstərcəyi qətiyyən inandırıcı sayılmır. Əksinə, iki ölkənin yaxınlaşması ilə qarşılıqlı surətdə gözlənilən maraqlar Qarabağ münaqişəsinin həlli imkanlarını genişləndirə bilər.

İndilikdə müşahidə olunan budur ki, ABŞ təzyiqlərinə, digər xarici təhdidlərə baxmayaraq, Türkiyə Rusiya ilə siyasi münasibəti, diplomatik əlaqələri yüksələn templə inkişaf etdirir. Regionun iki böyük və qüdrətli ölkəsinin bu şəkildə bir-birinə bağlanması Türkiyə üçün qardaş, Rusiya üçün strateji tərəfdaş olan Azərbaycanın xeyrinə olduğundan, rəsmi Bakı prosesin inkişafına öz töhfələrini verməyə çalışır. Bütün bunların nəticə etibarı ilə Dağlıq Qarabağ münaqişəsinin həll prosesini sürətləndirməsi də qaçılmaz sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Gürcüstana buraxılmayan Azərbaycan vətəndaşlarının sayı kütləvi həddə çatıb... üçüncü ölkəyik...

**Bu ilin yanvar-mart aylarında 493 Azərbaycan vətəndaşı Gürcüstana buraxılmayıb. Bu barədə Gürcüstan Daxili İşlər Nazirliyinin yaydığı hesabatda bildirilib. Belə ki, yanvar ayında qonşu ölkəyə 124, fevral ayında 141, mart ayında isə 228 Azərbaycan vətəndaşının daxil olmasına icazə verilməyib.**



***Kamran Ramazanlı:** "Hakimiyyət strukturlarında çalışan erməni əsilli məmurlar belə vəziyyət yaradır"*

***Samir Adıgözəlli:** "Düz 3 ildir Gürcüstana getməyimə məhdudiyyət qoyulub"*

Azərbaycan Gürcüstana buraxılmayan əcnəbi vətəndaşların sayına görə üçüncü yeri tutub.

Hesabat dövründə Gürcüstana buraxılmayan əcnəbi vətəndaşların ümumi sayı 6400-ə yaxın olub. Onların arasında birinci yeri İran (3000 nəfərə yaxın), ikinci yeri isə Hindistan vətəndaşları (1 200 nəfərə yaxın) tutub.

Azərbaycan Gürcüstanla qonşu olmaqla yanaşı, iki dövlət arasında çox yaxın münasibətlər mövcuddur. Gürcüstanda yarım milyondan çox soydaşımız yaşayır. Azərbaycan Gürcüstanın iqtisadi inkişafında mühüm rol oynayır. Azərbaycanın bir sıra enerji və nəqliyyat xətləri oradan keçir və Gürcüstan tranzit ölkə olaraq bundan milyonlar qazanır. Bundan başqa, Azərbaycan daha münasib şərtlərlə qonşu ölkəyə qaz ixrac edir. Belə olan halda, bir sıra Azərbaycan vətəndaşlarının Gürcüstana buraxılmaması təəccüb doğurur. Onu da qeyd edək ki, bir sıra tanınmış şəxslər də Gürcüstana buraxılmırlar.

O baxımdan bütün bunların səbəbi nədir? Bir rüb ərzində 500 nəfərə yaxın Azərbaycan vətəndaşının Gürcüstana buraxılmamasının arxasında nə dayanır?

**Məsələyə aydınlıq gətirən Gürcüstan əsilli ziyalı Kamran Ramazanlı bunu Gürcüstan hakimiyyətində çalışan erməni əsilli şəxslərin fəaliyyəti ilə əlaqələndirdi:** "Əvvələ iki ölkə arasında təkcə dövlətlər səviyyəsində deyil, QHT və ziyalılar səviyyəsində də münasibətlər var. Azərbaycan tərəfdən bu münasibətlərin inkişafı üçün bütün zəruri addımlar atılır. Təəssüf ki, Gürcüstanın müəyyən siyasi elitasında bu məsələlərə adekvat cavab yoxdur. Bu da ondan qaynaqlanır ki, Azərbaycan-Gürcüstan münasibətlərini yüksək səviyyədə inkişaf etdirən, bizim oradakı soydaşlarımızın problemlərini olduğu kimi çatdıran ictimai xadimlər ora buraxılmır. Kim fəal şəkildə bu problemləri gündəmə gətirir, həmin şəxs Gürcüstana buraxılmır. Gürcüstanda əhalinin sayına görə ermənilər üçüncü millətdir. Məsələ ondadır ki, çoxsaylı erməni əsilli Gürcüstan vətəndaşı ölkə hakimiyyətində təmsil olunur. Onlar Nazirlər Kabinetindən tutmuş, müxtəlif güc strukturlarında təmsil olunurlar. Gürcü soyadı qəbul etmiş ermənilər çoxluq təşkil edir. Məhz həmin məmurlar Azərbaycanın milli maraqlarının gürcü ictimaiyyətinə çatdırılmasının qarşısını almaq üçün belə vəziyyət yaradırlar. Yəni hakimiyyət strukturlarında çalışan erməni əsilli məmurlar belə vəziyyət yaradırlar. Bu səbəbdən 500 nəfərədək Azərbaycan vətəndaşı Gürcüstana buraxılmayıb".

**Gürcüstana buraxılmayan şəxslərdən biri də İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) sədri Samir Adıgözəllidir.** Onun sözlərinə görə, düz 3 ildir onun Gürcüstana girişinə məhdudiyyət qoyulub: "Düz üç il bundan əvvəl biz Beynəlxalq Diaspor Mərkəzinin heyəti olaraq mən, İsmayıl Ağayev və Namiq İsayev Gürcüstana gedirdik. Gürcüstanda BDM təmsilçiliyi tərəfindən yalançı "erməni soyqırımı" ilə bağlı bir aksiya təşkil olunmuşdu. Tiflis meriyasından buna icazə də alınmışdı. Ancaq Gürcüstan tərəfi heç bir səbəb göstərmədən bizi geri qaytardı. Bu illər ərzində biz dəfələrlə Gürcüstanın keçmiş prezidentinə, baş nazirinə və dövlət qurumlarına rəhbərlik edən şəxslərə müraciət etdik. Gürcüstanın Azərbaycandakı səfirliyində olduq. Bununla bağlı heç bir səbəb göstərmədilər. Hansı ki, biz heç vaxt Gürcüstanın daxili işinə qarışmamışıq. Əksinə, beynəlxalq tədbirlərdə Gürcüstanı dəstəkləmişik və bu ölkənin separatizmdən əziyyət çəkdiyini bəyan etmişik. Mənim müşahidələrimə görə, belə vəziyyətin arxasında hökumətdə çalışan erməni əsilli məmurlar dayanır. Onlar fəal adamları bir bəhanə ilə ölkəyə buraxmırlar. Gürcüstan hakimiyyəti, gürcü ziyalılar bunu bilməlidirlər. Problemin kökündə bu amil dayanır".

***Vidadi ORDAHALLI***

# Ermənistanın 12 illik milli təhlükəsizlik konsepsiyasını dəyişirlər - "məxmərilərin" ilginc ABŞ və Rusiya planları...

**Ermənistanın Təhlükəsizlik Şurası milli təhlükəsizlik strategiyasında dəyişikliklər edilməsi prosesinə başlayıb. Erməni mətbuatının yazdığına görə, bu sənəd 2007-ci ilin yanvarında qəbul edilib. Həm bölgədə, həm də dünyada baş verən kəskin dəyişikliklərə baxmayaraq, milli təhlükəsizlik strategiyası indiyədək heç bir dəyişikliyə məruz qalmayıb.**



*"Konkret Rusiyaya və yaxud da ABŞ-a xüsusi önəm verilməyəcək"*

***Azad İsazadə:** "Ermənistanın yeni milli təhlükəsizlik strategiyasında diaspor və terror amilinə daha çox önəm veriləcək"*

Yeni layihənin geniş müzakirəyə çıxarılacağı, daha sonra Paşinyanın qərarı ilə xüsusi komissiya yaradılacağı vurğulanır. Ermənistan təhlükəsizlik strategiyası ilə bağlı fikirlər 2016-cı ilin aprel döyüşlərindən sonra fəallaşmağa başlayıb. Serj Sarkisyan da təhlükəsizlik strategiyasına yenidən baxılması zərurətindən danışsa da, bu iş uzanıb. Sonuncu dəfə bu barədə Sarkisyan 2018-ci ilin yanvar ayında danışıb. Bu istiqamətdə konkret hansısa fəaliyyət olmayıb.

Hələlik sənəddə hansı bəndlərin dəyişdirilməsi ətrafında müzakirələrin aparılacağı məlum deyil. Erməni parlamentində geniş müzakirələr təşkil ediləcəyinə baxmayaraq, deputatlar bununla bağlı rəy bildirməkdən çəkinirlər.

"Mənim addımım" fraksiyasını təmsil edən, Ermənistan parlamentinin müdafiə, milli təhlükəsizlik və daxili işlər daimi komissiyasının üzvü Aram Xaçatryan bildirib ki, hələlik müzakirələrdə iştirak edilməsi barədə dəvət almayıb. O, məsələni daha ətraflı öyrəndikdən sonra bəyanat verəcəyini, 2007-ci ildən indiyədək heç bir dəyişiklik edilmədiyini nəzərə alaraq, çox sayda dəyişiklik ediləcəyini qeyd edib.

Erməni parlamentinin digər deputatı Arman Babacanyanın açıqlamasından belə məlum olub ki, Rusiya ilə münasibətlərdə Ermənistan xahiş edən tərəf kimi göstərilməməlidir: "Rusiya ilə yeni, layiqli münasibətlərin yaradılmasına işarələr olmalıdır. Erməni tərəfi xahiş edən rolunda olmamalıdır. Digər tərəfdən, Ermənistan-ABŞ münasibətlərində dəyişikliklərin aparılması xüsusilə önəmlidir".

Əldə edilən məlumata görə, dəqiq vaxt deyilməsə də, 2019-cu ilin sonunadək sənədin hazır olacağı qeyd edilir.

Adətən Ermənistan öz milli təhlükəsizlik strategiyasında Rusiya ilə münasibətlərə xüsusi önəm verib. Rusiyanın moderator olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunduğu üçün, bu faktor əsas rola malik olub.

Maraqlıdır, 2019-cu ilin sonuna qədər hazır olacaq milli təhlükəsizlik strategiyasında bu kimi məqamlara yanaşma necə olacaq? ABŞ-la münasibətlərdə hansı yeniliklər ola bilər? Bir sözlə, strategiyada ediləcək dəyişikliklərin mahiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən hərbi ekspert Azad İsazadənin sözlərinə görə, hər hansı strategiya qəbul olunanda gərək onun resursu olsun: "O cümlədən, milli təhlükəsizlik strategiyası işlənəndə hansısa resursa söykənməlidir. Bunun üçün müəyyən baza olmalıdır. Bu gün Ermənistan hansı strategiya qəbul etsə də, bu dövlətin əlində real güc yoxdur. Ermənistan nə iqtisadi, nə də hansısa xüsusi ordu gücünə arxalana bilər. O zaman Ermənistanın yeni milli təhlükəsizlik strategiyası ya köhnə güc mərkəzlərinə, ya da bu gün açıqlanmayan yeni güc mərkəzlərinə söykənməlidir. Reallıqda ermənilərin 2 əsas gücü var və erməni cəmiyyəti bunlara xüsusi önəm verir. Bunlardan biri diaspor amilidir, digəri isə terror. Ermənilər xaricdəki lobbilərə daha çox arxalanırlar. Söhbət təbii ki, erməni diasporundan gedir. Erməni lobbisi istər Ermənistan cəmiyyəti üçün, istərsə də dövlət üçün xüsusi əhəmiyyət kəsb edir. Digər tərəfdən, ermənilərin uzun illərdir terror ənənəsi var. Hansı ki, bir sıra ölkələrdə zaman-zaman müxtəlif terror aktları həyata keçiriblər. Mənə elə gəlir ki, Ermənistanın yeni milli təhlükəsizlik strategiyasında diaspor və terror amilinə daha çox önəm veriləcək. Yəni əsasən bu iki gücə arxalanacaqlar. Konkret Rusiyaya və yaxud da ABŞ-a xüsusi önəm verilməyəcək. Baxmayaraq ki, Ermənistan KTMT-də təmsil olunur.

Fikrimcə, çalışacaqlar müxtəlif təzyiq vasitələri ilə ABŞ və Rusiyadan öz maraqları üçün istifadə etsinlər. Rusiya amilinin azaldılması o qədər də çox olmayacaq. Ona görə ki, Rusiyada vacib mövqelərdə işləyən ermənilər çoxdur. Onlar Rusiyanın maraqlarını Ermənistanda qoruyacaqlar. Həmçinin, Ermənistanın maraqlarını Rusiyada qoruyacaqlar. Bu baxımdan, ermənilər müəyyən balansı saxlamağa çalışacaqlar".

***Vidadi ORDAHALLI***

**Mötəbər beynəlxalq idman tədbirlərinin təşkilatçılığı baxımından artıq xeyli təcrübə qazanmış Azərbaycan bir neçə gün sonra daha bir idman yarışına evsahibliyi edəcək. Dörd il öncə dünyada 500 milyondan çox azarkeşi olan "Formula-1" Qran-Prisinə qapı açan Bakı artıq bu yarışların təşkilində də əhəmiyyətli təcrübəyə malikdir. Həyata keçirilən hazırlıq işləri, demək olar ki, yekunlaşmaq üzrədir. Bir neçə gün sonra dünyanın dörd bir yanında yaşayan tamaşaçıların əsas diqqəti ölkəmizdə keçiriləcək "Formula-1"Qran-Prisində olacaq. Məlumdur ki, "Formula-1" Qran-Prisi olduqca populyar olan idman növüdür. Adıçəkilən yarışın paytaxtımızda təşkil olunması Azərbaycan üçün olduqca əhəmiyyətlidir.**

***"...ölkəmizin etibarlı tərəfdaş kimi tanınması ölkəyə investisiyaların axması, əməkdaşlığa açıq olması və yeni texnologiyaların gəlməsinə səbəb olur"***



# Azərbaycanın əvvəlki "Formula"lardan əldə etdiyi qazanclar bu il də davam edəcəkmi...



***Rüfət Quliyev:** "500 milyon tamaşaçısı olan "Formula-1" Qran-Prisinin Azərbaycanda keçirilməsi ölkəmizə həm iqtisadi, həm də strateji baxımdan böyük fayda gətirir"*

Bu Qran-Prinin Azərbaycanda təşkil olunması, ilk növbədə, ölkəmizin gündən-günə artan beynəlxalq nüfuzunun göstəricisidir və dövlətimizə olan böyük etimadla bağlıdır. Adıçəkilən yarışın Bakıda keçirilməsi, ilk növbədə, ölkəmizi dünyaya tanıtmaq üçün əlverişli fürsətdir. Həmçinin, adıçəkilən yarışlar Azərbaycanın iqtisadiyyatına xeyir verəcək bir amildir. Çünki "Formula-1" Qran-Prisinə baxmaq üçün ölkəmizə xaricdən çoxlu sayda qonaq gəlir. Yarışlar ölkəmizin mədəniyyətini dünyaya təqdim etmək baxımından da əhəmiyyətlidir. Bununla yanaşı, Azərbaycan iqtisadiyyatının mühüm sahəsi olan turizmin inkişafına da mühüm töhfə verəcək.

Onu da bildirək ki, "Formula-1" Qran-Prisi bir tərəfdən əyləncəli tədbirdir, digər tərəfdən isə keçirildiyi ölkənin dünyada təbliğində böyük rol oynayır. Yarışlar ərəfəsində internet resurslarında "Formula-1" Qran-Prisi keçirilən ölkə ilə bağlı axtarışların sayı milyonları keçir. Həmçinin, bu yarışların respublikamızda keçirilməsi dünyanın həm Azərbaycanın tarixi, həm də mədəniyyəti ilə tanış olmasına, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri daha dərindən başa düşməsinə imkan yaradır. Bundan əlavə, ölkəmizin sivil, inkişaf edən bir ölkə olması qənaətinə gəlməsindən xəbər verir. Təşkilatçılar da Azərbaycanın yarışların təşkilinə diqqətindən çox razılıq edirlər. Son iki ilin təcrübəsi nəzərə alınaraq, bu il yarışa hazırlıq işləri daha qısa zamanda və yüksək səviyyədə ortaya qoyuldu. Heç şübhəsiz ki, bu həftəsonu başlayacaq yarışlar bütün dünya tərəfindən böyük maraqla izlənəcək.

O da bəllidir ki, "Formula-1" fanatlarının sayı 500 milyon adamdan çoxdur. Bu yarış məşhurluğuna görə dünyanın futbol çempionatları və olimpiya oyunları ilə rəqabət aparır. Bundan başqa, "F-1" digər beynəlxalq yarışlarla müqayisədə ən çox auditoriya toplayır. Çempionat birbaşa efirdə yayımlanır və beş qitənin 200 ölkəsini əhatə edir. Təkcə 2018-ci ildə Azərbaycanda keçirilən "Formula-1" Qran Prisini 82,3 milyon insan izləyib, bu da, öz növbəsində, böyük sayda insanın Bakı haqqında məlumat alması deməkdir, onların xeyli hissəsi bizim şəhəri görmək fikrinə düşüb.

Açıqlanan statistik rəqəmlərdə qeyd olunur ki, adıçəkilən yarışı izləmək üçün 2016-cı ildə Bakıya dünyanın 42, 2017-ci ildə 65, 2018-ci ildə isə 78 ölkəsindən qonaqlar gəlib. Bu il keçiriləcək yarışlarda yarışmanı izləmək üçün ölkəyə gələcək qonaqların sayının daha çox olacağı proqnozlaşdırılır.

"Formula-1" yarışlarının Azərbaycanda keçirilməsinin bir çox sahələrə müsbət təsiri var. İlk olaraq iqtisadiyyada verdiyi fayda haqqında məlumat verək. Paytaxtda baş tutmuş "Formula-1" yarışlarının iqtisadiyyata göstərdiyi təsirlərə dair araşdırma aparılıb. Araşdırmanın nəticələrinə dair hazırlanmış hesabatda qeyd olunur ki, 2016 və 2017-ci il Qran-Prilərindən ölkəmizə gələn ümumi gəlirlərin məbləği 277 milyon dollar təşkil edib. Yarışların iki ilinə yatırılan 100 milyon dollar iki dəfədən çox qazanc verib. Nəzərə almaq lazımdır ki, əsas xərcləri - müvafiq avadanlıqlar alınması, bu və ya digər infrastruktur qurğuların quraşdırılması yarışın ilk ili həyata keçirilir, sonrakı illər xərclər get-gedə azalır.

"Formula-1" idman yarışının ölkəmizdə keçirilməsi əsasən turizm sektorunun inkişaf etməsinə səbəb olur. Məlumdur ki, adıçəkilən yarış 2023-cu ilə qədər ölkəmizdə keçiriləcək. O üzdən, "Formula-1" Azərbaycan Qran-Prisinin keçirilməsi sayəsində 2023-cü ilədək ölkəyə turist axınının 4 milyon nəfərə qədər artacağı gözlənir.

Ötən illər ərzində keçirilən "Formula-1" yarışlarında Bakıya gələn turistlərin sayı sürətlə artıb. Yarışlardan sonra Bakı otellərindən verilən bilgilərə görə, bütün otellərin otaqları, demək olar ki, tam sifariş olunmuşdu. Orta hesabla bir turistin 3 gün ərzində bütün xərci 1000 dollar ətrafında qiymətləndirilir. Bu isə əlavə olaraq 10 milyon dollar ölkəyə gəlirin gəlməsi deməkdir.

Onu da bildirək ki, Bakıda keçirilən "Formula-1" yarışı haqqında dünyanın tanınmış media orqanlarında silsilə materiallar yayımlandı. Hətta 2018-ci ildə Bakıda baş tutmuş "Formula-1" yarışı İngiltərənin məşhur "The Times" və "The Guardian" nəşrləri kimi dünyanın aparıcı kütləvi informasiya vasitələri tərəfindən "2018-ci ilin ən yaxşı yarışı" adlandırılıb.

Statistik rəqəmlərdə o da qeyd olunur ki, televiziya auditoriyasında da builki Azərbaycan Qran-Prisi bir çox yarışdan üstün olub. Azərbaycan Qran-Prisini dünya üzrə bütün həftəsonu yarışları daxil olmaqla 83 milyon insan izləyib.

Dövlət başçısı İlham Əliyev də "Formula-1" yarışının əhəmiyyəti barədə danışıb. O qeyd edib ki, biz gözəl iqlimimizi, gözəl mətbəximizi, tarixi abidələrimizi, 9 iqlim qurşağını əlavə etsək, bir daha görərik ki, biz, doğrudan da, xoşbəxt insanlarıq, belə gözəl ölkədə yaşayırıq və belə gözəl ölkəni daha da gözəlləşdiririk: "Ona görə "Formula-1" yarışının əhəmiyyəti bundan sonra da illərlə özünü göstərəcək. Turizmdən gələn gəlir ölkə iqtisadiyyatını gücləndirir, yeni iş yerlərinin açılmasına xidmət göstərir və iqtisadi şaxələndirməni təmin edir".

**"Formula-1" Qran-Prisinin ölkəmizdə keçirilməsinin sosial-iqtisadi əhəmiyyəti barədə "Bakı-Xəbər"ə məlumat verən millət vəkili Rüfət Quliyev qeyd etdi ki, belə tədbirlərin keçirilməsi Azərbaycana həm iqtisadi, həm də strateji baxımdan böyük fayda gətirir.** Etibarlı tərəfdaş kimi tanınması ölkəyə investisiyaların axmasına, əməkdaşlığa açıq olması ölkəyə yeni texnologiyaların gəlməsinə səbəb olur. Bunlarla bərabər, bu tədbirlər Azərbaycan həqiqətlərinin, Azərbaycanın ədalətli mövqeyinin dünyaya yayılmasına böyük təkan verir.

Millət vəkilinin sözlərinə görə, "Formula-1" Qran-Prisi də bütün dünyada çox geniş tamaşaçı auditoriyasına malikdir. Bu yarışı bütün qitələrdə təxminən 500 milyon tamaşaçı izləyir. "Formula-1" Qran-Prisinin Azərbaycanda keçirilməsi ölkəmizin təbliği, turist cəlbediciliyinin artırılması üçün böyük əhəmiyyət daşıyır: "Burada, heç şübhəsiz ki, 6 kilometr uzunluğa malik Bakı trekinin özünəməxsus cəhətlərini də xüsusi vurğulamaq lazımdır. Yarış treki şəhərin ən görməli yerlərindən keçir. Trek Bakının müasirliyini və qədimliyini, həmçinin, Xəzərin əsrarəngiz gözəlliyini təqdim etmək üçün əla imkanlar açır. Bakı şəhər halqası elə qurulub ki, yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçısı UNESCO-nun Ümumdünya mədəni irs siyahısına daxil olan İçərişəhəri, Qız qalasını, paytaxtın müasir memarlıq abidələrini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən ecazkar mənzərəni görə bilirlər. Ümumiyyətlə, bəri başdan yarışların bütün trek boyunca çox maraqlı keçəcəyini söyləmək mümkündür".

***Günel CƏLİLOVA***

**Qaz və işıq limiti ilə bağlı məsələ uzun müddətdir vətəndaşlar tərəfindən sosial şəbəkələrdə müzakirə edilir, şikayətlər dilə gətirilir. Qaz limitinin tam şəkildə ləğv olunması və ya limitin qaldırılması təklif olunur. Bu mövzu ilə bağlı dəfələrlə millət vəkilləri Milli Məclisdə fikir bildiriblər.**

# Əhali üçün işıq və qaz limitinin artırılması təklifinə deputatlar da dəstək verməyə başlayır...

***Nüsrət Qasımov:** "Qaza, işığa limit tətbiq edilməsi orta və aşağı təbəqəli insanlara maddi ziyan vurur"*

***Fuad İbrahimli:** "Təbii qaz və eləcə də elektrik enerjisinə tətbiq olunan limitlə bağlı dəyişikliklər edilə bilər"*

Milli Məclisin son iclasında qazdan və elektrik enerjisindən istifadəyə qoyulan limitin artırılması təklif olunub. Belə bir təkliflə Milli Məclisin deputatı Fazil Mustafa çıxış edib. O qeyd edib ki, əhalinin müxtəlif təbəqələrindən edilən müraciətlərə əsaslanaraq qaza qoyulan limit qaldırılmalıdır: "İsrafçılığın qarşısını almaq üçün limitin olması normaldır. Hazırda qaza 1700 kubmetr limit qoyulub. Təklif edirəm ki, bu limit qaldırılsın. Çünki həyət evlərində yaşayan, ödəniş imkanı aşağı olan insanlar o limitdən çox əziyyət çəkirlər. Aztəminatlı əhali üçün bu, böyük problemdir. Çox istərdim ki, müvafiq qurumlar bu məsələyə diqqət yetirsinlər və limit iki dəfə qaldırılsın".

Xatırladaq ki, qaz və işıqla bağlı limit 2016-cı ildən tətbiq edilib. Aylıq elektrik enerjisi istehlakı 300 kilovat-saatadək olan istehlakçılar üçün ödəniş 7 qəpik, aylıq istehlak həcminin 300 kilovat-saatdan çox olan hissəsi üçün isə 11 qəpik müəyyənləşdirilib.

Eləcə də təbii qazın pərakəndə satış tarifi əhali üzrə illik istehlak həcmi 1700 kubmetrədək olan istehlakçılar üçün 10 qəpik, illik istehlak həcminin 1700 kubmetrdən çox olan hissəsi üçün isə 20 qəpik müəyyən olunub.

**Qaz və elektrik enerjisinə qoyulan limitin qaldırılmasına münasibət bildirən Azad İstehlakçılar Birliyinin kommunal xidmətlər üzrə mütəxəssisi Nüsrət Qasımov qeyd etdi ki, qaza, işığa limit tətbiq edilməsi məsələsi dünyanın heç yerində yoxdur:** "Bu, bazar iqtisadiyyatı qanunlarına uyğun deyil. Əksinə, əgər bir şeyə tələbat çoxdursa, istehsalçı qiymətini aşağı salmalıdır. Məsələn, 80 qəpiklik kartofdan 50 kilo alırsansa, satıcı bunu 70 qəpikdən verə bilər. 1700 kubmetrdən artıq qaz işlədən istehlakçı 10 qəpik əvəzinə hər kubmetrə 20 qəpik, istehlak həcminin 300 kilovat-saatdan çox olan hissəsi üçün isə 11 qəpik verir. Guya qənaət edirlər. Bu tamamilə yanlış düşüncədir".



N.Qasımovun sözlərinə görə, qaz və işığa görə limitin tətbiq olunması ancaq orta və aşağı təbəqəli insanlara maddi ziyan vurur: "İmkanlı şəxslər, bilirsiniz, yalnız şəhərdə, böyük binalarda yaşayırlar. Onlar dördgözlü sobadan istifadə edirlər. İstilik mərkəzləri qaydasındadır. Kombini işlətməsələr belə, həmin binalarda istilik itkisi olmur. Biri 5-ci mərtəbədə yaşayır, alt-üst mərtəbə, balkon, pilləkan qəfəsləri də qızır. Elə adam var ki, ayda 100-200 kubmetr qaz yandırmır.

Zərbə kasıblara dəyir. Məsələn, kənd yerlərində kasıbların 3-4 otaqları olur, bu da yerdən tikilmə evlərdir, istilik itkisi çoxdur. Ay yarıma 1700 kubmetr qazı yaxud 300 kilovat-saat işığı istifadə edib qurtarırlar. Çox adam limiti keçən kimi qaz xəttini bağlayır və meyvə ağaclarını qırıb dəmir peçlərdə yandırmağa başlayırlar. Yaxud küçədə şam ağaclarını qırırlar, taxta parçaları tapırlar və s. Bu da ekologiyaya ziyandır. Təəssüf edirəm ki, bəzi media qurumları əhalinin səsinə səs vermir, bu problemə toxunmurlar".

**İqtisadçı Fuad İbrahimli hesab edir ki, təbii qaz və eləcə də elektrik enerjisinə tətbiq olunan limitlə bağlı dəyişikliklər edilə bilər:** "Tətbiq edilən limit istənilən halda azdır. Təbii ki, burada söhbət məhz əhalinin istifadə etdiyi təbii qaz və elektrik enerjisinə tətbiq olunan limitdən gedir. Xüsusilə də bəzi çoxmərtəbəli binalarda, fərdi yaşayış evlərində, həyətyanı sahələrdə tikilən mənzillərdə istilik sistemi olmadığından, təbii qaz sərfiyyatı yüksəkdir.

Təbii qaz belə yaşıyış yerlərində çox işlənir. Təyin olunan 1700 kubmetrlik limitin 70-80 faizi payız-qış mövsümündə sərf olunur. Digər aylara cüzi bir hissə qalır. Bununla da ili başa vurmaq mümkün görünmür.

Əhalinin istehlak səbəti və xərcləri düzgün müəyyənləşməlidir. Nəyəsə tarif təyin edilində gərək vətəndaşın gəlirləri müəyyən edilsin. Deyək ki, orta aylıq gəlir 400 manatdırsa, aylıq xərc 500 manat olmamalıdır. Bu mənada, təbii qaza tətbiq edilən limitdə birdən-birə 100 faiz artım differensial deyil. Heç olmasa 50 faiz artım olmalıydı. İllik istehlak həcminin 1700 kubmetrdən artıq olan hissəsi üçün heç olmasa 15 qəpik təyin edilməli idi".

***Günel CƏLİLOVA***

---

**Türkiyə paytaxtında gey-paradların keçirilməsinə icazə verilib. Bu barədə "Amnesty International" təşkilatının yaydığı məlumatda qeyd olunur. Bildirilir ki, "Kaos GL" fəalları 2017-ci ildən Ankarada LGBT mövzusunda ictimai tədbirlərin keçirilməsinə qoyulan qadağanın aradan qaldırılması ilə bağlı məhkəməyə müraciət ediblər.**

# Qardaş Türkiyədə gey-parad icazəsi Azərbaycanda təəssübkeş narahatlıqla qarşılandı...

***Fatimə Hacıbəyli:** "Türkiyədə gey paradın keçirilməsinə icazə verilməsi təəssüf doğurur"*



Aprelin 19-da məhkəmə dinc nümayişlərin keçirilməsi haqqının təmin edilməsini dövlətin öhdəliyi kimi əsas gətirərək "Kaos GL" fəallarının iddiasını təmin edib.

Nəzərə almaq lazımdır ki, Türkiyə ilə Azərbaycanın yaxın münasibəti var. İstər siyasi, istər iqtisadi, istərsə də mədəniyyət sahəsində yaxın əlaqələrimiz var. İstənilən sahə ilə bağlı ortaq layihələr həyata keçirilir.

Türkiyədə keçirilən hər hansı bir tədbirin reaksiyası Azərbaycanda da duyulur. Belə bir tədbirin qonşu, qardaş ölkədə keçirilməsi Azərbaycan ictimaiyyəti tərəfindən xoş qarşılanmır.

Onu da qeyd etmək lazımdır ki, Türkiyədə islami dəyərlərə böyük önəm verilir. Maraqlıdır, islami dəyərlərə, dinə böyük dəyər verildiyi ölkədə gey paradın keçirilməsi nə dərəcədə düzgündür?

**"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Ermənistan mətbuatının yazdığına görə, Türkiyədə gey-paradın keçirilməsinə icazə verilib.** Heç şübhəsiz ki, belə bir hadisənin Türkiyədə baş verməsi təəssüf doğurur: "Nəzərə almaq lazımdır ki, Türkiyə dinə, dini əməllərə böyük önəm verir. O üzdən, bu tip paradların Türkiyədə keçirilməsi inandırıcı görünmür. Onu da nəzərə almaq lazımdır ki, "Türkiyədə gey paradın keçirilməsinə icazə verilməsi" haqqında məlumatı Ermənistan mediasi yayıb. Bu xəbəri məhz Ermənistan mediası yaydığından inandırıcı görsənmir. Bu, təxribat da ola bilər".

*"...bu, təxribat da ola bilər"*

Həmsöhbətimiz onu da vurğuladı ki, gey parad adlı aksiya bir sıra ölkələrdə keçirilir. Bu paradın əvvəllər də Türkiyədə keçirilməsi üçün müraciət olunmuşdu. O zamanlar bu tədbirin keçirilməsinə icazə verilməmişdi: "Təxminən 2016-cı ildə İstanbulun şəhər bələdiyyəsi gey paradın keçirilməsinə icazə verməmişdi. O zaman bunun həm təhlükəsizlik, həm də dini baxımdan keçirilməsinin düzgün olmadığı bildirilmişdi. Nəzərə almaq lazımdır ki, Azərbaycandan fərqli olaraq, Türkiyədə ictimai təhlükəsizliklə bağlı problem yaşanır. Bu səbəbdən də həmin ölkədə bu cür paradın keçirilməsi düzgün deyil".

***Günel CƏLİLOVA***

**Dil hər bir xalqın tarixini yaşatmaqla yanaşı, həm də onun mənəvi pasportudur. Gizlin deyil ki, dili xalq yaşadır, nəsillərdən-nəsillərə ötürür. Xalqın əsrlərdən bəri yaşatdığı, əsrlərin süzgəcindən keçirib cilaladığı ana dilimizin saflığı, işləkliyi ən yüksək formada təsbit olunmalıdır. Son illər hər beş ildən bir Azərbaycan dilinin orfoqrafiya lüğəti hazırlanaraq çap olunur.**

*"Mən indi bu məsələyə münasibət bildirsəm deyəcəklər ki, bizim işimizə maneçilik törədirsən"*

# Alimlik karyerasında "nailiyyət xatirinə" dilimizin orfoqrafiyasında bu qədər ziyanlı dəyişiklik edənlər...

## *Fəxrəddin Veysəlli: "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin layihəsi ilə bağlı tənqidi fikirlərimi mətbuata bildirmişəm"*



Ekspertlər qeyd edirlər ki, orfoqrafiya lüğətinin beş ildən bir yenilənməsi zərurətdən irəli gəlir. Onlar bunu əsasən dilimizə elm, texnika, siyasət, iqtisadiyyat və sair sahələrdən daxil olan yeni sözlərin düzgün yazılış qaydalarının istifadəçilərə çatdırılması üçün gərəkli olduğunu deyirlər. Bu, əslində, doğrudan da vacib məsələdir. Yeni sözlərin düzgün yazılış qaydalarının bu şəkildə təqdim edilməsi müsbət haldır.

Lakin hər dəfə Azərbaycan dilinin yeni orfoqrafiya lüğəti hazırlananda biz burada bəzi sözlərin yazılışlarında ciddi fərqlilik müşahidə edirik. Heç şübhəsiz ki, bu da istifadəçilər tərəfindən elə də yaxşı qarşılanmır. Müxtəlif sözlərin yazılışına edilən dəyişikliklər fikir ayrılığı, mübahisə yaradır. Elə sözlər var ki, onların yazılışının dəyişdirilməsi qaydaları ciddi narahatlıq doğurur.

**"Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə nə kimi dəyişikliklər var?**

Son bir ildə ciddi müzakirə predmetinə çevrilən və bu günlərdə Nazirlər Kabineti tərəfindən təsdiqlənən "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə bəzi sözlərin əvvəlki illərdə nəşr olunan lüğətlərdə yer alan yazılışdan fərqli təqdim edilməsi narazılıqla qarşılanır.

69 maddədən ibarət olan "Azərbaycan dilinin orfoqrafiya lüğəti" təsdiq edilməmişdən əvvəl ictimai müzakirəyə təqdim edilmişdi. Burada bəzi sözlərin yazılışına dəyişiklik ediləcəyi proqnozlaşdırılırdı. Hətta layihədə bəzi nümunələr də əks olunmuşdu. Məsələn, təklif olunurdu ki, cərrahiyyə - cərrahiyə, dövriyyə - dövriyə, ədəbiyyat - ədəbiyat, fəaliyyət - fəaliyət, maliyyə - maliyə, üslubiyyat - üslubiyat və s. yazılsın. Təsdiqlənən lüğətdə bu sözlər yeni variantda verilib. Yəni mədəniyyət-mədəniyət, maliyyə-maliyə və s. kimi.

2013-cü ildə nəşr edilən "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə qeyd edilirdi ki, tərkibində anti, audio, avia, avto, makro, mikro, mini, mono, multi, nano, neo, post, super, ultra hissəcikləri olan mürəkkəb sözlər bitişik yazılır: antivirus, multikulturalizm, superdövlət, supermarket, aviasalon, avtopark, miniavtobus, nanotexnologiya, nanohissəcik, neofaşizm, neorealizm, postsovet, postmodernizm və s. sözlərinin də yazılışı belədir. Uzun illərdən bəri bu sözlərin yazılışı mübahisə doğurduğu üçün, 2013-cü ildə nəşr edilən lüğətin mübahisələrə son qoyduğu qeyd edilsə də, yeni orfoqrafiya lüğəti, əksinə, yeni mübahisə cəbhəsi açıb.

**Bəzi sözlər niyə defislə yazılır?**

Yeni orfoqrafiya lüğətinin 5.1 maddəsində qeyd edilir ki, tərkibində a-, anti-, ba-, bi-, na-, pre- ön şəkilçiləri olan sözlər bitişik yazılır: anormal, antivirus, baməzə, bisavad, nalayiq, prepozisiya və s.

Eyni maddəyə əlavə edilən qeyddə isə "anti şəkilçisindən sonra xüsusi isim gəldikdə defis işarəsi qoyulur: Anti-Azərbaycan, Anti-Rusiya və s." göstərilir.

Məsələn, siyasi arenada, eləcə də mətbuatda da geniş istifadə edilən transmilli sözü əvvəlki dövrlərdə həm ayrı, həm də bitişik yazılıb. Yeni qaydalarda isə bitikik yazılması təsdiqlənib.

Qeyd edək ki, yeni orfoqrafiya lüğətinin hazırlandığı dövrdə bildirilirdi ki, rus dilindən alınma və sonu rus dilində olduğu kimi, "a" ilə bitən bir sıra sözlərdə "a" hərfi götürüləcək. Məsələn, "metafora" sözü metafor, "morfema" sözü morfem kimi yazılacaq. Yeni lüğətə görə, artıq kompüter sözü bir çoxlarının yazdığı və əvvəlki lüğətdə göstərildiyi kimi, "kompyuter" kimi deyil, "kompüter" kimi yazılır.

Yeni təsdiqlənən Azərbaycan dilinin Orfoqrafiya Normalarına görə, hüsnxətt-hüsnxət, rəsmxətt-rəsmxət kimi yazılır.

Bir sıra sözlər də yeni qayda ilə yazılır. Qeydə görə, bu morfemlərin bəziləri xüsusi isimlərə qoşulduqda defislə yazılır. Məsələn, trans-Asiya, trans-Avropa, trans-Avrasiya, trans-Qafqaz, paleo-Azərbaycan, proto-Azərbaycan, ümum-Azərbaycan, ümum-Avropa və s.

**Orfoqrafiya lüğətində sözlərin yazılışına edilən dəyişikliklərin fəsadları**

"Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə baş verən dəyişikliklərlə bağlı məsələni gündəmə gətirməyimiz təsadüfi deyil. Hər dəfə orfoqrafiya lüğəti yenilənəndə biz burada sözlərin yazılışında əvvəlki yazılışlardan fərqlilik görürük. Bu da, istər-istəməz, xeyli sual doğurur. Bir sözün başqa dövrlərdə nəşr edilən orfoqrafiya lüğətlərində yazılandan fərqli yazılması cəmiyyətdə, yazı-pozu ilə məşğul olan adamlarda, müəllimlərdə, şagirdlərdə, abituriyentlərdə, yazıçı və şairlərdə müəyyən narazılıqlar yaradır. Onlar hesab edirlər ki, sözlərin fərqli yazılışda təqdim edilməsi illərdən bəri mənimsədikləri yazı vərdişlərinə zərər vurur. Sözün yazılışında istənilən dəyişiklik sonrakı zamanlarda problemlər yaradır. Məsələn, vaxtaşırı olaraq müəllimlərin sertifikasiyası keçirilir, onlar müxtəlif imtahanlarda iştirak edirlər, dövlət qulluqçuları da həmçinin. Abituriyentlər də eyni qaydada. Bu insanlar uzun illərdən bəri düzgün yazı qaydası kimi qəbul etdikləri bir sözün fərqli qaydada yazıldığını gördükdə, istər-istəməz, çaşqın vəziyyətə düşəcəklər. Bu da onlarda ciddi psixoloji narahatlıq yaradacaq. Sözlərin yazılışında bu dərəcədə fərqliliyin baş verməsi yazı əlaqələrinin itməsinə gətirib çıxaracaq.

Yuxarıda bildirdiyimiz kimi, 69 maddədən ibarət "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin layihəsi bir neçə ay əvvəl ictimai müzakirəyə çıxarıldığı zaman da bəzi mütəxəssislər təklif edilən dəyişiklikləri məqbul hesab etmirdilər. Onlar belə zənn edirlər ki, hansısa alim, dilçi öz yüksək elmi titulunu təsdiqləmək, yaxud özünü tarixə salmaq üçün Azərbaycan dilinin başına oyunlar açır. Əlbəttə, bu cür mürəkkəbliyə varmaq, əlləməçilik açmaq yersizdir.

**"Bu geniş şəkildə müzakirə edilməli idi"**

Filologiya elmləri doktoru, professor, AMEA-nın Dilçilik İnstitutunun keçmiş direktoru Fəxrəddin Veysəlli "Bakı-Xəbər"ə bildirdi ki, o hazırda təsdiqlənən orfoqrafiya lüğəti ilə tanış deyil, lakin lüğətin layihəsi ilə tanışdır və onunla bağlı fikirlərini bildirib. "Mən hələ "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin layihəsi ilə bağlı tənqidi fikirlərimi mətbuata bildirmişəm. Hətta o zaman bu çoxlarının xoşuna gəlmədi, dedilər ki, o bizim zəhmətimizi yerə vurur. Demişdim ki, bu bir-iki günlük məsələ deyil, zaman tələb edən işdir və böyük bir kollektivin zəhmətidir. Ona görə də bu geniş şəkildə müzakirə edilməli idi. Mən indi bu məsələyə münasibət bildirsəm deyəcəklər ki, bizim işimizə maneçilik törədirsən. Bu gün yeni qaydalar haqqında fikir bildirmək üçün gərək mən onunla yenidən tanış olam, görəm yeni nə dəyişikliklər edilib. Ancaq hesab edirəm ki, bir sıra sözlər, eləcə də Anti-Azərbayan sözü bitişik yazıla bilər. Razıyam ki, bir sıra sözlərin yazılışında mübahisə doğuran məqamlar var" - deyə bildirdi.

**Görkəmli dilçi-alim sözügedən sənədin layihəsi ilə bağlı hansı iradlarını bildiribmiş?**

Qeyd edək ki, Fəxrəddin Veysəlli keçən il yeni orfoqrafiya lüğətinin layihəsi ilə bağlı mətbuata bildirirdi ki, Azərbaycan dilinin yeni orfoqrafiya qaydalarının layihəsi dağınıqdır, pərakəndə haldadır. O, həçminin, vurğulayırdı ki, ümumiyyətlə, dünya praktikasında orfoqrafiyanın üç -fonetik, morfoloji və ənənəvi prinsipi var. "Bunlara mütləq əməl olunmalıdır. Geniş ictimaiyyətə təqdim olunan layihəyə nəzər saldıqda bu prinsiplərin bölgüsünü görə bilmədim. Həm də 69 maddə çoxdur. Bunu heç yadda saxlamaq mümkün deyil. Qaydalar həddindən artıq yığcam olmalı idi.

Digər tərəfdən, layihədə "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin 2013-cü il nəşrində metafor, profilaktori, sanatori şəklində verilmiş sözlərin metafora, profilaktoriya, sanatoriya kimi yazılması tövsiyə olunur. Əslində, nə ingilis dilində, nə də alman dilində metafor sözünün sonunda "a" hərfi yazılır. A hərfi rus dilinin elementidir. Bunu birdəfəlik həll etmək lazım idi. Mən əvvəl də demişəm, indi də bu fikirdəyəm ki, "y" hərfini atıb profilaktoria, sanatoria yazmalıyıq. Bu sözləri belə yazsaq, dünya dağılar?! Burada da "y" samiti rus dilinin elementidir. Ona görə də yüzlərlə bu cür sözün yazılışında axırıncı hecada "y" samitini buraxmaq lazımdır, buna ehtiyac yoxdur. Ola bilsin tələffüzdə "y" işlənsin, amma astronomiya, biologiya, ensiklopediya sözlərində "y" hərfinə ehtiyac yoxdur.

Yaxud da layihədə Motsart, Vorontsov yazılıb. Mən Azərbaycan dilində bu cür adların ancaq "s" hərfi ilə yazılmasının tərəfdarıyam. Voronsov, Mosart yazılsa, nə olar? Motsart alman dilinin, rus dilinin elementidir. Belə halları sadələşdirmək lazımdır. Məsələn, Vereşşaginin qoşa "şş" ilə yazılması təklif olunur. Mənə elə gəlir ki, burada qondarmalıq var. Vereşagin yazılsa, nə dəyişəcək ki?!

Xarici mənşəli sözlərin yazılışına toxunaq. Layihədə Hayneni Heyne, Göteni Höte kimi yazırlar. Bu da rus dilinin təsiridir. Ya layihəni tərtib edən adamların alman dilindən xəbərləri yoxdur, ya da onun transliterasiyasını başa düşmürlər ki, Göteni Höte kimi yazırlar. Bu biabırçılıqdır, guya Göte yazanda pis başa düşülür. Elə deyil axı. Mən alman dili mütəxəssisiyəm. Almanlarla söhbətdə bu vəziyyəti onlara danışıram, almanlar deyirlər ki, bizim Höte adında şairimiz yoxdur. İsveçin Göteborq şəhərini Höteborq kimi yazırlar, düz deyil axı" - deyə bildirirdi.

O, həmçinin, qeyd edirdi ki, eyni zamanda, layihənin 45-ci bəndində qoşmalarla bağlı xeyli dolaşıqlıq var. Bununla yanaşı, qoşa "yy" samiti olan sözlərin bir "y" ilə yazılmasının məqsədəuyğun sayılmasını müsbət, ssenari sözünün də bir "s" ilə yazılmasını təqdir edib.

Məlumat üçün bildirək ki, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu qeyd edib ki, lüğətə 4000 yeni söz əlavə olunub. "Yeni "Azərbaycan dilinin orfoqrafiya lüğəti" may ayının sonuna qədər hazır olacaq" - deyə vurğulayan akademik bildirdi ki, "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nə Nazirlər Kabineti tərəfindən baxılıb və yeni lüğətə Ədliyyə Nazirliyi və Nazirlər Kabineti tərəfindən müsbət rəy verilib. "Yeni "Azərbaycan dilinin orfoqrafiya lüğəti" may ayının sonuna qədər hazır olacaq və nəşrə göndəriləcək".

Akademik, həmçinin, vurğulayıb ki, yeni "Azərbaycan dilinin orfoqrafiya lüğəti" 113 min sözü əhatə edir: "Köhnə lüğətdən 1000-dən çox qondarma söz çıxarılaraq yeni lüğətə salınmayıb, çünki elə sözlər var idi ki, eyni mənanı daşıyırdı. Misal üçün: nəqqaş və naqqaş. Eyni zamanda, daha 4000 yeni söz lüğətə əlavə olunub. Yeni əlavə olunan sözlər müasir informasiya texnologiyası və qloballaşma ilə bağlı olan sözlərdir. Məsələn, 2013-cü ildə nəşr olunan lüğətdə multikulturalizm, tolerantlıq və s. sözlər yox idi".

*İradə SARIYEVA*



# Dilimizin izahlı terminlər lüğətinə qarşı plagiat ittihamları - İki tanınmış professorun maraqlı polemikası...

**Əqli mülkiyyətin toxunulmazlığı həm elm, həm də qələm adamları tərəfindən ciddi qorunmalıdır. İstənilən elmi mənbədən istifadə edilərkən istinadlar edilməlidir, edilmirsə, bu artıq oğurluq, elmi dillə desək plagiatdır. Bu gün bütün dünyada plagiatlıqla bağlı ciddi mübarizə getsə də, yenə də tam olaraq bu halın qarşısını almaq olmur. Bu gün müxtəlif elmi, bədii əsərlərin plagiat olduğu ortaya çıxır.**

Doğrudur, plagiatlığı təsdiq etmək xeyli zaman tələb edir, lakin israrlı şəxslər bu halı ortaya çıxara bilirlər.

Sirr deyil ki, son 15-20 ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müvafiq institutlarında elmi işlərin, dissertasiyaların, hətta hazırlanan bəzi elmi kitabların plagiat olduğu meydana çıxıb. Hətta bir neçə il əvvəl AMEA-da plagiatlığa və yalançı elmi təzahürlərə qarşı mübarizə ilə bağlı bir təsisat da yaradılıb. Buna baxmayaraq, yenə də AMEA-nın müvafiq institutlarında plagiatlıqla bağlı halların mövcud olduğu iddia olunur. Vaxtaşırı olaraq müxtəlif mətbu orqanlarda bununla əlaqədar yazılar, alimlərin fikir və rəyləri yer alır. Bu yazılarda elə konkret faktlar əks olunur ki, bu da geniş araşdırma tələb edir. Əlbəttə, bəzən elə yüksək elmi titulu olan şəxslərin, alimlərin adları plagiatlıqda hallandırılır ki, adam onların belə bir addım atdığına inanmaq istəmir.

Son dövrlər plagiatlıq məsələsində AMEA-nın İ.Nəsimi adına Dilçilik İnstitutunun da adı hallandırılır. Ölkənin baş dilçilik təsisatı, elmi mərkəzi olan Dilçilik İnstitutunda bu kimi halın baş verməsi diqqəti çəkir.

Son günlər müxtəlif mətbuat orqanlarında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri, professor Sayalı Sadıqovanın yeni nəşr etdirdiyi "İzahlı dilçilik terminləri lüğəti" kitabının plagiat olması ilə bağlı iddialar yer alır. Mətbuatda gedən yazılara görə, sözügedən institutun Terminologiya şöbəsinin müdiri Sayalı Sadıqova və onun başçılıq etdiyi elmi işçilər M.İ.Adilov, Z.N.Verdiyeva və F.M.Ağayevanın birlikdə tərtib etdikləri "İzahlı dilçilik terminləri lüğəti" F.Veysəllinin müəllifliyi və redaktəsi ilə hazırlanmış "Dilçilik ensiklopediyası"ndan köçürülüb. Mətbuatda "İzahlı dilçilik terminləri lüğəti" kitabındakı köçürmələri üzə çıxarmaq üçün hər üç kitabın əldə edildiyi qeyd edilir.

Doğrudanmı Dilçilik İnstitutunun nəşr etdiyi "İzahlı dilçilik terminləri lüğəti" plagiatdır?

### Fəxrəddin Veysəlli: "Alimlərin plagiatlıqla məşğul olması çox pis hərəkətdir və bu qəbuledilməzdir"

Azərbaycan Dillər Universitetinin (ADU) professoru Fəxrəddin Veysəlli "Bakı-Xəbərə" açıqlamasında mətbuatda yer alan faktları təsdiqləyərək bundan təəssüfləndiyini bildirdi. "İzahlı dilçilik terminləri ilə bağlı bizim kitablarımızın birinci və ikinci cildləri hələ 2006-2008-ci illərdə çapdan çıxıb. Həmin kitablar internetdə də yerləşdirilib. Alimlərin plagiatlıqla məşğul olması çox pis hərəkətdir və bu qəbuledilməzdir. Plagiat çox yaramaz hərəkətdir. Xüsusilə də özünə hörmət edən alim gərək belə hərəkət etməsin. Çünki bu bir alimin etikasına uyğun gəlmir. Eyni zamanda, qanun tərəfindən müəllif hüquqları qorunur. Bununla bağlı Müəllif Hüquqları Agentliyi fəaliyyət göstərir. Bu biabırçılıqdır. Onlar elə-belə alim, küçədən gələn adam deyillər. Əslində, bu çox yaramaz, alçaq və həddindən artıq pis əməldir. Mənəvi haqqın, əqli mülkiyyətin oğurlanması heç cür qəbul edilən deyil. Bütün ölkə miqyasında buna lənət oxunmalıdır "- deyə F.Veysəlli bildirdi.

Onun kitabından plagiatlıq edilməsi ilə bağlı alimin Dilçilik İnstitutuna müraciət edib-etməməsinə gəlincə, F.Veysəlli bildirdi ki, müraciətin heç bir faydası yoxdur. "Müraciət edib nə edəcəkdim? Mən müəllifəm. Ya gərək onları götürüb məhkəməyə verəydim, hər şeyi məhkəmə həll edəydi, ya da başqa hərəkətə yol verəydim, lakin mən bunları etmədim. Belə bir məsəl var: "Tülkü tülkülüyünü sübut edənə kimi çəkib dərisini boğazından çıxarırlar. Mən sözümü dedim. Yenə də deyirəm ki, mənəvi mülkün oğurlanması yaramaz hərəkətdir, bu cinayətdir. Belə iş olmaz. Burada söhbət təkcə həmkarlıqdan getmir, alim etikası da var axı. Ayıbdır. Adam gərək bir cümləni belə götürəndə istinad etsin ki, bunun mənbəyi haradır. Amma bu adamlar başdan-başa əsəri götürüb istifadə ediblər. Bu gün bəzi nəşrlərdə bu məsələ ilə bağlı silsilə yazılar gedir. Bu yazılarda Dilçilik Ensiklopediyasını hazırlayan alimlərin hamısının fikirləri var" - deyə F.Veysəlli bildirdi.

Professor Sayalı Sadıqova "Bakı-Xəbər"ə açıqlamasında səsləndirilən ittihamlara cavab verdi: "Artıq kitabın təqdimatı bir neçə aydır olub, bəyənilib və dövlət mükafatımızı almışıq. Kitabda hər hansı plagiatlıq olsaydı, indiyədək bunun səsi çıxardı. Fəxrəddin Veysəlli Dilçilik Ensiklopediyası yazıb, orada alman, rus, ingilis lüğətləri var. Bizim kitabımız isə sırf Azərbaycan qrammatikasında işlənən terminlərin lüğətidir. Buna isə heç kəs nə isə deyə bilməz. Bizim kitabın üzərində 6 nəfər işləyib, burada heç bir köçürülmədən söhbət gedə bilməz. Bizim yazdığımız kitab Azərbaycan dilinin qramatikası əsasında ilk dəfə sanballı yazılmış izahlı dilçilik lüğətidir. Kitab yazılan zaman bizim qarşımızda Azərbaycan dilinin qrammatikası olub. Azərbaycanda hər 5 ildən bir terminoloji lüğət yenilənir. Bizim əlimizdə olan əsas mənbə isə Qəzənfər müəllimin kitabları olur. İndi bizim yazdığımız lüğətdə hansı köçürülmədən söhbət gedə bilər? Bu qətiyyən ola bilməz".

### Sayalı Sadıqova: "Plagiatlıq elmi əsərlərdə, monoqrafiyalarda olur, tərtib olunan əsərlərdə plagiatlıq olmur, çünki..."

O, həmçinin, qeyd etdi ki, tərtib olunan əsərlərdə, nəşrlərdə plagiatlıq axtarmaq savadsızlıqdır. "Bilirsiniz, "İzahlı dilçilik terminləri lüğəti" tərtib olunan əsərdir. Tərtib olunan əsər o deməkdir ki, orada müxtəlif elmi əsərlərdən, lüğətlərdən, dərsliklərdən terminlər toplanır. Çünki terminlər vahid, dəqiq, aydın olmalıdır. Ona görə də tərtib olunan əsərdə plagiatlıq axtarmaq düzgün deyil. Plagiatlıq elmi əsərlərdə, monoqrafiyalarda axtarılır. İzahlı lüğətlər hazırlananda elmi əsərlərdən, dərsliklərdən, lüğətlərdən bütün terminlər toplanır və izahlı lüğət hazırlanır. Lüğətdə indiyə qədər plagiatlıq məsələsi yoxdur. Müəllif Hüquqları Agentliyi də bildirib ki, əgər nəşr hazırlanarkən hansı əsərlərdən istifadə edilməsi lüğət kitabındakı ədəbiyyat siyahısında öz əksini tapıbsa, orada plagiatlıq yoxdur. Kitabda isə hansı terminin haradan götürüldüyü əks olunub. Termin anlayışı dəqiq ifadə edən sözlərdir. Termin termin səviyyəsinə yüksələnə qədər illər tələb olunur. Bu gün dilçilikdə istifadə olunan terminlərin çoxu yunan və latın mənşəli terminlərdir. Məsələn, onamastika ilə bağlı terminlər Afat Qurbanovun və eləcə də bu sahə ilə məşğul olan alimlərin əsərlərindən toplanıb. Biz durub onunla bağlı tərif verə bilmərik. Lüğətdə müəllif olmur, lüğəti tərtib edənlər olur. Fəxrəddin Veysəllinin lüğəti beşdilli, bizim lüğətimiz isə birdilli lüğətdir. Biz stolüstü kitab hazırlamışıq. Lüğətdə elmilik yoxdur, ayrı-ayrı alimlərin gəldiyi nəticələr, fikirləri o terminlərdə öz əksini tapır. İlk növbədə termin heç bir alim tərəfindən yaradılmır, yaradılmış terminlər lüğətlərdə toplanır və izahı verilir. Tərifi olan terminlər alimlər tərəfindən müəyyənləşdirilir".

S.Sadıqova, həmçinin, qeyd etdi ki, F.Veysəllinin bu istiqamətdə ajiotaj yaratmasının əsası yoxdur. O hesab edir ki, V.Veysəlli şəxsi maraqları naminə Dilçilik İnstitutuna qarşı kampaniya təşkil edir. "O, bizim instituta qarşı şəxsi müstəvidə kampaniya aparır və bütün iddialarının da əsasında onun şəxsi maraqları dayanır. Bəzən iddia edirlər ki, guya bizim bu kitab qrant layihəsi hesabına hazırlanıb. Halbuki, AMEA-da müəyyən işlərin görülməsi üçün 10 ildir qrant ayrılmır. Yenə də deyirəm, plagiatlıq elmi əsərlərdə, monoqrafiyalarda olur, tərtib olunan əsərlərdə olmur. Çünki tərtib olunma o deməkdir ki, müxtəlif elmi kitablardan, dərsliklərdən, monoqrafiyalardan, lüğətlərdən hazır terminlər toplanır verilir. Əgər müxtəlif elmi kitablardan, lüğətlərdən, monoqrafiyalardan terminlər toplanırsa və onun dəqiqliyi verilirsə, o, lüğətin indiki prinsiplərini özündə əks etdirir" -deyə S.Sadıqova qeyd etdi.

*İradə SARIYEVA*

**"Gözəllik qurban tələb edir" deyimi gündəlik işlətdiyimiz aforizmlər sırasında bəlkə də ilk yeri tutur. Dəyişmək, fərqlənmək istəyənlərin bir çoxu hesab edir ki, buna plastik əməliyyatlar keçirmək yolu ilə nail olmaq mümkündür. Odur ki, yalnız xarici ölkələrdə deyil, həmçinin, Azərbaycanda da nəinki məşhurlar, eləcə də sadə insanlar, xüsusən də qızlar, qadınlar estetik əməliyyatlara böyük maraq göstərirlər.**

# Son illərdə Azərbaycanda plastik əməliyyatlardan ölənlər və şikəst olanlar...

***Aynurə Həsənova:** "...canını cərrah stolunda tapşıranlar da az deyil"*

Çox təəssüf ki, plastik əməliyyatlar heç də həmişə gözəlliyin yaranmasına, cilalanmasına səbəb olmur, uğursuz əməliyyatlar nəticəsində hətta canını gözəlliyə qurban verənlər də olur. Gözəlliyə qovuşmaq istəyən qızların, qadınların müəyyən bir qismi bu yolda həyatlarından olurlar.

Statistikaya nəzər salsaq görərik ki, ən çox Amerika və Avropada, İranda dəb halını alan plastik əməliyyatlar artıq son dövrlər Azərbaycanda da sürətlə yayılmağa başlayıb. Bu da, qeyd etdiyimiz kimi, günü-gündən gözəllik qurbanı olanların sayının artmasına səbəb olur. Qəribədir ki, insanlar keçirəcəkləri estetik əməliyyatların onlara həyatı bahasına başa gələcəyini bilə-bilə bəzən öz həyatları üçün risqli addımalr atırlar. Ekspertlər vurğulayırlar ki, estetik cərrahiyyə bu gün özünün ən yüksək inkişaf dönəmini yaşasa da, yenə də bu məsələdə təhlükə hər an baş verə bilər.

Mütəxəssislərin qeyd etdiyinə görə, bəzən insanlar qan-damar, ürək, diabet, revmatizm kimi xəstəliklərdən əziyyət çəkdikləri halda, plastik əməliyyata gedir və çox zaman da bu onların həyatlarını itirməsi ilə sonlanır. Yəni onlar bilərəkdən öz ölümlərinə qol çəkirlər.

### Ölkəmizdə daha çox 18-22 yaşlı gənclərin gözəllik qurbanı olduqları bildirilir

Mütəxəssislərin verdiyi bilgilərə görə, bu gün Azərbaycanda plastik əməliyyat qurbanları arasında gənclər üstünlük təşkil edirlər. Burnunda, ağzında, bədəninin başqa əzalarında qüsur olanlar bundan xilas olmaq üçün plastik cərrahların qapısını döyürlər. Mətbuatda bu barədə gedən yazıları, ekspert rəylərini, eləcə də bu istiqamətdə olan faktları bir araya topladıqda görürsən ki, insanlar könüllü şəkildə bu yolu tuturlar. Məlumatlara görə, təəssüf ki, ölkəmizdə gözəllik qurbanı olanlar daha çox 18-22 yaşlı gənclərdir. Bəli, nəticədə bəzən gənclər nəinki mövcud olan gözəlliklərindən məhrum olurlar, hətta dünyalarını dəyişirlər. Bu da həm onların yaxınlarını incidir, həm də cəmiyyətdə narahatlıq yaradır.

Plastik əməliyyat qurbanları ilə bağlı araşdırmalar apararkən qarşımıza xeyli sayda sarsıdıcı fakt çıxdı. Əlbəttə, bu faktların üzərindən sükutla keçmək mümkün deyil. İnsanlar görə-görə ki, öz dostu, rəfiqəsi, yaxını, tanıdığı bir insan estetik əməliyyat zamanı həyatını itirib, bundan ibrət götürmək əvəzinə, onların etdiklərini təkrarlayırlar.

Məlum olduğu kimi, estetik əməliyyat qurbanları sırasında Azərbaycan modeli də var. 22 yaşlı model Leyla Oruclunun estetik əməliyyatdan sonra dünyasını dəyişməsi dediklərimizə sübutdur.

Qeyd edək ki, L.Oruclu ailəsindən xəbərsiz piy sovurma əməliyyatına girib və bu da onun ölümü ilə nəticələnib. Məlumatlara görə, gənc qız əməliyyatdan iki gün sonra, pioemboliya diaqnozundan (piy parçasının damarda tıxanıqlıq yaratması) dünyasını dəyişib.

### Burun plastik əməliyyatlarının qurbanları...

Ekspert Aynurə Həsənova bizimlə söhbətində bildirdi ki, plastik əməliyyat qurbanlarının sayı durmadan artır. O vurğuladı ki, bunun səbəblərindən biri bu işlə qeyri-peşəkarların məşğul olmasıdır. Onun sözlərinə görə, bu gün plastik cərrahiyyə cəmiyyət üçün təhlükəyə çevrilib, lakin biz bunun fərqinə varmaq istəmirik. Hələ bir neçə il əvvəl Azərbaycanda 30 minə yaxın insan plastik cərraha müraciət etmişdisə, hazırda onların sayı təxminən 100 min nəfəri ötüb. Mütəxəssis bildirdi ki, bu gün sadə qadınların bir qismi şou-biznes nümayəndələrini, Hollivud aktrisalarını özlərinə ideal seçdikləri üçün onlara bənzəmək istəyirlər. Bunun üçün də plastik cərrahların qapısını döyürlər.

Ekspert vurğuladı ki, uğursuz plastik cərrahiyyə qurbanları sırasında 18 yaşlı qızlar da çoxluq təşkil edir. Bir neçə il əvvəl tələbə Mürsəlova Leyla Namiq qızı da bu aqibəti yaşayanlardan biri olub. Bu barədə mətbuatda məlumatlar yer aldığını deyən ekspert vurğuladı ki, o, burnundan plastik əməliyyat olunarkən həyatla vidalaşıb. "Çox təəssüf ki, bu gün gənc qızlar, qadınlar kütləvi şəkildə plastik cərrahiyyəyə üz tuturlar. Doğrudur, kifayət qədər uğurlu əməliyyatlar da var. Lakin bu əməliyyatların heç də hamısını uğurlu saymaq mümkün deyil. Ağrılı da olsa, bildirim ki, cərrah stolunda canını tapşıranlar da az deyil. Məsələ burasındadır ki, qızların çoxu burnunu əməliyyat etdirirlər. Burnu plastik əməliyyat etdirənlər sırasında ölümlə üzləşənlərin olduğunu da müşahidə edirik. Bu da ondan irəli gəlir ki, əməliyyat zamanı bir çox qaydalar gözlənilmir. Deyim ki, bəzi hallarda insanlar klinikaların şan-şöhrətinə aldanıb ora müraciət edirlər, nəticədə isə qeyri-peşəkar əlində can verirlər. Reallıq budur ki, plastik əməliyyatlara insanları gözəlləşmək istəyi aparır" - deyə A.Həsənova vurğuladı.



*"Burnu plastik əməliyyat etdirənlər sırasında ölümlə üzləşənlərin olduğunu da müşahidə edirik"*

*"Bəzi hallarda, insanlar klinikaların şan-şöhrətinə aldanıb ora müraciət edirlər"*

Qeyd edək ki, uğursuz plastik əməliyyat nəticəsində şikəst olanlar da az deyil. Mətbuatda plastik əməliyyat keçirən Afət Baxışovanın fikirləri yer alıb. O bildirib ki, uğursuz əməliyyat nəticəsində ayağının amputasiya olunmaq təhlükəsi var. Bir neçə il əvvəl baş verən bu hadisə bir gənc xanımın ağrı-acısının artmasına səbəb olub. Həkim səhlənkarlığının, qeyri-peşəkarlığının doğurduğu fəsadların ağrısını az qala hər gün duyuruq.

### Burnundan plastik əməliyyat keçirən 27 yaşlı Gülyazın faciəsi...

Gənclərin plastik əməliyyata hansı səbəbdən meyl etməsinin səbəblərini psixoloqlar belə izah edirlər ki, plastik əməliyyat etdirmə istəyi çox vaxt daxili natamamlıq kompleksindən irəli gəlir. Psixoloqların fikrincə, natamamlıq kompleksi insanın simasını əməliyyat etdirməklə aradan qalxa bilməz, bu daxili hissdir.

Uğursuz plastik əməliyyatların qurbanları bir deyil, beş deyil. Bir neçə gün əvvəl Bakıda gənc qızın burun əməliyyatından sonra dünyasını dəyişməsi xəbəri cəmiyyətdə növbəti dəfə əks-səda yaratdı. Söhbət 1992-ci il təvəllüdlü Gülyaz Hacıyevanın faciəsindən gedir. Yaxınlarının verdiyi məlumata görə, gənc qız özəl klinikaların birində 15 gün ərzində üç dəfə əməliyyat olunub. İlk əməliyyatını aprelin 3-də keçirən G.Hacıyeva burun çəpərinin əyriliyi və artıq ətdən əziyyət çəkirmiş.

Xanımın sonuncu əməliyyatı aprelin 17-si baş tutub. Sonuncu əməliyyatda gənc qızın qanında laxtalanma olmadığından o, çoxlu qan itirib və bu səbəbdən komaya düşüb. G.Hacıyeva aprelin 18-i gecə saatlarında dünyasını dəyişib.

G.Hacıyevanın da qeyri-peşəkar həkimin qurbanı olduğu deyilir. Təəssüf ki, bu gün ölkəmizdə məşhur olan gözəllik mərkəzlərinin bir çoxunda sözügedən hadisələr yaşanır. Buna baxmayaraq, estetik gözəllik mərkəzlərinin qurbanları günü-gündən artır. Əsasən "sallaq dodaq", burun korreksiyası zamanı yaranan çürümə hallarının sayı artmaqda davam edir.

### Burnu çürüyən 29 yaşlı qadın…

Bundan başqa, 29 yaşlı bir qadının da plastik əməliyyatdan əziyyət çəkməsi haqqında məlumatlar var. Həmin qadının burnunda kosmetoloqun səhvi ucbatından çürümə əmələ gəlib. Qadın bölgələrdən birində xidmət göstərən kosmetoloqa müraciət edərək burnuna filler dolğu etdirib. Lakin üç gün sonra burnunda qaralmalar olduğunu görüb. Kosmetoloquna bu barədə məlumat versə də, heç bir kömək olmayıb və vəziyyəti daha da pisləşməyə doğru gedib. Kosmetoloquna zəng edib bu barədə desə də, o, "keçəcək, maz çək" deyib. Lakin 5 gün sonra burnunun çürüdüyünü görən qız kosmetoloqa gedib, o isə gördüyü mənzərədən dəhşətə gələrək, pasiyenti tez Bakıya göndərib. Bölgələrdən birində baş verən bu hadisə də narahatlıq doğurmaya bilmir. Hətta pasiyenti müalicə edən kosmetoloq Sevinc Abdullayeva sosial şəbəkə hesabından məlumat yayaraq bildirib ki, prosedur zamanı ucuz və sertifikatı olmayan preparatdan istifadə edilib: "Xanım burun quruluşunu düzəltmək üçün özünü kosmetoloq kimi təqdim edən qeyri-peşəkar insana müraciət edib. Mən təxmin edirəm bu hansı preparatdır. Ucuzdur və sertifikatı yoxdur. Əsas məsələ odur ki, həmin preparat (gel - red.) burun nahiyəsinə yeridilən zaman yanlışlıqla damara daxil olub. Bu zaman damar tutulub və burun nahiyəsində qan dövranı pozulub. Nəticədə isə qaralma başlayıb və qanqren olub".

Qeyd edək ki, adı çəkilən həkim mətbuata bildirib ki, burnu çürüyən xanım ona güclü ağrılarla müraciət edib: "Ona ağrıların azalması üçün dərmanlar təyin etdik. İki həftə sonra burun nahiyəsindəki qaraltılar keçməyə başladı və burun əvvəlki rənginə qayıtdı. Hazırda burun dərisi üzərində çapıqlar qalmaqdadır, onun bərpası üçün müalicəmiz davam edir" .

Məsələ burasındadır ki, hadisə baş verdikdən sonra həkim gunahı özündə yox, birbaşa pasiyentdə görür…

Mütəxəssis A.Həsənovanın sözlərinə görə, uğursuz cərrahiyyə əməliyyatı nəticəsində əməliyyat orqanları da çürüyənlər az deyil. A. Həsənova qeyd etdi ki, gənc xanımlar kosmetoloji prosedurlar üçün hər insana müraciət etməsinlər: "Həkim olmayan insana burun etibar etmək olmaz. Hər reklam olunan videoya, şəklə, ucuz qiymətə aldanmasınlar. Elə bu xanım da qiymət ucuz idi deyə, həvəslənib və sonu da məlumdur. Xanımlar reklamlarda ucuz qiymətə hər hansı bir prosedurun edilməsinə aldanmasınlar. Əks halda, burun, dəri və dodaqlarını itirə bilərlər. Bu gün uğursuz əməliyyatlar nəticəsində pasiyentin burnunun çürüməsi halları da var, canını cərrah stolunda tapşıranlar da az deyil. Təəssüf ki, bu kimi hallar mövcuddur".

Həmsöhbətimiz onu da vurğuladı ki, fillerlə burun rinoplastikası manikür-pedikür deyil, saça boya qoymaq deyil. Bu proseduru peşəkar həkimlər etməlidirlər.

A.Həsənova onu da qeyd etdi ki, kosmetoloq səhvi ucbatından xanımın burnunda çürümə gedib: "Özünü kosmetoloq adlandıran şəxs xanıma filleri səhv vurduğu üçün, qan dövranında problem yaranıb və nəticədə həmin nahiyənin qanla qidalanması dayanıb".

Qeyd edək ki, plastik cərrahların bir çoxu qeyd edir ki, əməliyyatdan sonra ən çox rast gəlinən problemlərdən biri də göz qapağının funksiyasının müəyyən qədər itirməsi, açıq qalması və normal bağlanmamasıdır. Bu gün, ümumiyyətlə, plastik cərrahiyyə keçirənlər arasında həyatını itirənlər, ömürlük şikəst qalanlar, orqanları çürüyənlər də çoxdur. Bu bizim həyəcan təbili çalmağımız üçün kifayət deyilmi?

**Məlumat üçün bildirək ki, tarixdə ilk plastik əməliyyat I Dünya Müharibəsi dövründə həyata keçirilib. 1916-cı ildə silah daşıyan gəmilərin toqquşması nəticəsində Volter Yeonun gözlərinin altı və üstü bərbad hala düşüb. Zərər görməmiş nahiyələrdən alınan dərini gözün ətrafına yerləşdirən həkim Harold Gillies bu əməliyyatı həyata keçirmiş ilk həkim, Yeo isə plastik əməliyyat etdirmiş ilk şəxs oldu. Yeonun əməliyyatı uğurlu alınsa da, ondan 1 əsr sonra belə həyata keçirilən bəzi plastik əməliyyatların mənfi nəticələri haqqında yazımızda söhbət açdıq.**

*İradə SARIYEVA*

№ 73 (3971) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

24 APREL 2019-cu il

www.baki-xeber.com

Azercell

## Elan

"MUSİKHİN.BAL DÜNYASI" MMC-yə məxsus № 200400481 VÖEN, № 17010200328883000 Dövlət Reyestrindən çıxarış və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

"ZİLVİN GROUP" MMC-yə məxsus № 1402653461 VÖEN, nizamnamə, möhür və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

"SABA" MMC-yə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Kərimov Nazim Əjdər oğlunun adına, Ağsu rayonu, İlxıcı kəndində yerləşən Əmlak kompleksi kimi müəssisənin reyestr № 409011002088-12301 çıxarış itdiyi üçün etibarsız sayılır.

Fətəliyev Hüseyn Nəriman oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, Fəzayıl Bayramov küçəsi, ev №6, mənzil №7 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Mərdəkan bağlar massivində yerləşən №1016 v/36 bağ sahəsinin sahibi Feyruz Məcid oğlu Musayevin adına №30 order itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nəsimi rayonu, S.Əsgərova küçəsi, ev №157, mənzil 21 ünvanının sahibi Solmaz Azad qızı Əhədovanın adına qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Rəhimov Əlizamin Sulduz oğlunun adına, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kənd Təsərrüfatı Müəssisəsi tərəfindən 21 may 2003-cü il tarixində verilmiş № 28 əmrdən çıxarış itdiyi üçün etibarsız sayılır (ünvan: Buzovna qəsəbəsi tərəvəzçilik-südçülük sovxozu, 0.10 ha).

Əliyev Şakir Nadir oğlunun adına, Bakı şəhəri, Xəzər rayonu, Zirə qəsəbəsi, Qərb hissəsində yerləşən torpaq sahəsinin çıxarış və sərəncamı itdiyi üçün etibarsız sayılır.

Sultanov Tural Əlirza oğlunun adına Bakı şəhəri, Nərimanov rayonu, A.Alı küçəsi 7/19, mənzil 27 ünvanının çıxarış və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Rüstəmova Flora Sabir qızının adına, Bakı şəhəri, Yasamal rayonu, Xiyabani 33, mənzil 255 ünvanına "Simurq" MTK tərəfindən verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

Əfəndiyeva Fatimat Nəzir qızının adına, Bakı şəhəri, Nizami rayonu, İsmayıl Məmmədov 6/21 ünvanında yerləşən mənzilin Dövlət Reyestrindən çıxarışı itdiyi üçün etibarsız sayılır.

Hacıyev Məmmədağa Ağakərim oğlunun adına, Bakı şəhəri, Nardaran qəsəbəsi 837 a ünvanında yerləşən torpağın № 25631 müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Qədirov Elşən Vüqar oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## 2019-cu ilin ilk 3 ayında "Uşaq Qaynar Xətt" xidmətinə 801 müraciət daxil olub

**"Azercell Telekom" MMC-nin dəstəyilə yaradılan və fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt" xidməti 2019-cu ilin yanvar, fevral, mart ayları üzrə hesabatını açıqlayıb.**

Hesabata əsasən, bu ilin I rübündə xidmətdən 801 uşaq yararlanıb. Yanvar ayında "Uşaq Qaynar Xətt" xidmətinə, ümumilikdə, 239, fevral ayında 345, mart ayında isə 217 müraciət daxil olub. Onlardan 491-i təhsil, 50-si sosial, 67-si psixoloji, 77-si hüquqi, 29-u səhiyyə, 87-si isə digər sahələrdə yaranan sualları əhatə edib. Qeyd edək ki, "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə daxil olan zənglərin 437-si qızlar, 364-ü isə oğlanlara aiddir.

"Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinin yaradılmasında əsas məqsəd ailədə zorakılığa məruz qalan, həmyaşıdları ilə problem yaşayan, psixoloji və mənəvi yardıma ehtiyacı olan uşaqlara dəstək olmaq, onlara problemlərinin həllinin tapılmasına, sosial mühitə uyğunlaşmalarına yardım etməkdir. "Uşaq Qaynar Xətt"in dünyanın istənilən nöqtəsində əlçatan olmasını təmin etmək üçün, "Azercell" şirkətinin təşəbbüsü ilə 2017-ci ildə İOS və Android əməliyyat sistemlərini dəstəkləyən mobil tətbiqi istifadəyə verilib. 2018-ci ilin iyun ayının 13-dən isə xidmətin Göygöl ofisi fəaliyyətə başlayıb. Mərkəz yalnız Göygöl rayonu üçün deyil, eyni zamanda, yaxın ətraf rayonlarda (Goranboy, Gəncə, Şəmkir, Qazax, Ağstafa) yaşayan uşaqlara da xidmət göstərir. "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinin işçi heyəti uşaqlarla iş sahəsində geniş təcrübəyə malik olan psixoloqlar, hüquqşünaslar və sosial işçilərdən ibarətdir.

"Azercell Telekom" MMC-nin dəstəyi, "Ümidli Gələcək İctimai Birliyi"nin təşkilatçılığı ilə 24 saat fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinə həm şəhərdaxili, həm də "Azercell" nömrələrindən edilən zənglər ödənişsizdir.Uşaqlara (012) 480 22 80, (050) 680 22 80, (051) 880 11 80, (051) 880 22 80 və (051) 580 22 80 nömrələri ilə günün istənilən saatında "Qaynar Xətt" xidmətinə müraciət etmək imkanı yaradılıb."Uşaq Qaynar Xətt" xidməti haqqında ətraflı məlumatı www.usaqxetti.az internet səhifəsindən əldə edə bilərsiniz.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Ümumdünya Kitab Günündə "Nar"dan kənd məktəbinə dəstək

**Elm, təhsil və maariflənmənin inkişafına dəstək verən "Nar" 23 aprel - Ümumdünya Kitab Günü ilə əlaqədar növbəti uğurlu layihəsini gerçəkləşdirdi.**

Mobil operator Cəlilabadın Təzəkənd kəndində yerləşən məktəbə 500-dən artıq kitab və elektron kitabxanaya giriş imkanı yaradan müasir kompyuterlər hədiyyə etməklə kitabxananı yeniləyib. Təhsil Nazirliyinin dəstəyilə keçirilən aksiyada məktəbə təqdim edilən kitablar əsasən məktəblilər üçün klassik və müasir ədəbiyyatı əhatə edir. Bura nağıllar, uşaq ensiklopediyası, uşaq ədəbiyyatı, lügətlər, dünya və Azərbaycan ədəbiyyatı nümunələri və bu qəbildən olan digər kitablar daxildir. Qeyd edək ki, kitablar Azərbaycan, rus və ingilis dillərindədir. "Nar"ın hədiyyə etdiyi kompyuterləri məktəblilər həm informatika dərslərində, həm də elektron kitabxana kimi istifadə edə biləcəklər. "Nar" Ümumdünya Kitab Günü ilə əlaqədar məktəbləri kitabla təmin etməyi artıq bir ənənə halına çevirib. Ötən il mobil operator Bakıda yerləşən internat məktəblərindən birinə kitablar hədiyyə etmişdi. Aksiyanın keçirilməsində məqsəd uşaqları oxumağa həvəsləndirmək, onlarda kitab oxumaq vərdişinin formalaşmasına dəstək olmaq və təhsilin önəmini aşılamaqdan ibarətdir. Qeyd edək ki, 23 aprelin hər il Ümumdünya Kitab Günü kimi qeyd edilməsi ilə bağlı qərar 1995-ci ildə UNESCO tərəfindən qəbul edilib. Əlamətdar günün məhz 23 aprel tarixində qeyd edilməsinin əsas məqsədi həmin gündə Servantes, Şekspir, Veqa, Nabiokov kimi məşhur yazarların doğum və ölüm günlərinin olmasıdır. Gənc nəslin motivasiyası, təhsil və maariflənməyə olan marağın artırılması "Nar" KSM strategiyasının əsas istiqamətlərindəndir. Uzun illərdir bu çərçivədə mobil operator maariflənmənin təşviqi məqsədilə genişmiqyaslı aksiyalar təşkil edir, müxtəlif bilik müsabiqələri və intellektual yarışların sponsoru qismində çıxış edir. "Nar" KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib.

"Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərin istifadəsinə verib.

Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Maliyyə məsələlərinin həlli üçün yaxşı vaxt deyil. Yeni işə və ya layihəyə başlamayın. Aldığınız təkliflər ilk baxışdan cazibədar və şirnikləndirici təsir bağışlasa da, əslində, zərərlidir.



**Buğa** - İrəliyə doğru sürətlə irəliləmək istəyirsinizsə, yaşamın intensiv ritminə uyğunlaşın. Astagəllik, süstlük, ətalət imkanlarınızı əhəmiyyətli dərəcədə azaldacaq. Günün ikinci yarısında rəqibləri üstələyn.



**Əkizlər** - Məhsuldar, sərfəli, hadisələrlə zəngin zamandır. Hadisələrin episentrində olun. Fəaliyyətiniz üçün zəruri məlumatı əldə etmək üçün sınanmış, etibarlı vasitələrdən istifadə edin.



**Xərçəng** - Uğur bilavasitə yeni kursa hazırlıq, zamanla ayaqlaşmaq məharətinizdən asılıdır. Dünənki günlə yaşamaq, risklərdən kənar qalmaq ilk baxışdan rahat və cazibədar təsir bağışlasa da, sonucda ciddi geriləməyinizə səbəb olacaq.



**Şir** - Çox geniş layihəyə başlayaraq irrasional işlərlə məşğul olmayın. Nüfuzunuzu zərbə altına atmayın. Yaxşı zamandır. Amma bir müddət kölgədə qalsanız, heç pis olmaz. Biznesinizi kimsəyə etibar etməyin.



**Qız** - Yeni plan, metod, əlaqələr üçün münasib zamandır. İndi dumanlı, mücərrəd təsir başlayan məqsədlər tapşırıqları həll etdikcə, problemləri çözdükcə aydınlaşacaq. Yeni məqamlar əyan olacaq.



**Tərəzi** - Günün ilk yarısında imkanlarınız artacaq. Kommersiya fəaliyyəti ilə məşğulsunuzsa, yeni istiqamət seçin. Əlavə stimula zərurət duymadan inkişaf edin. Yeni tərəfdaş axtarışına çıxmaq üçün əlverişli zamandır.



**Əqrəb** - Kommunikativ imkanlarınızı artırın. Sizin vaxtınızı və öz zamanını boşuna xərcləyən insanlardan uzaq durun. Yaşamdakı situasiyalar sizə yaxşı dərs olacaq. Yeni metodları sınayın, variantları yoxlayın.



**Oxatan** - Günün ilk yarısında başladığınız işin önəminə fikir verin. Qarşınızda maraqlı yollar çoxdur. Amma onların hamısı faydalı deyil. Hətta, bəzi istiqamətlər yanlış və təhlükəlidir.



**Oğlaq** - Daşınmaz əmlak və maliyyə məsələləri ilə məşğul olmaq üçün yaxşı zamandır. Alış-verişə yollanmaq olar. Lakin bədxərclik etməyin. Pulunuzun qədrini bilin. Şayiələrə, dedi-qodulara fikir verməyin.



**Dolça** - Günün ilk yarısından etibarən bütün sahələrdə aktiv fəaliyyət göstərə bilərsiniz. Yazışma, səfər, yerdəyişmələr uğurlu alınacaq. Gərəkli informasiyanın axtarışında və əldə olunmasında irəliləməyə çalışın.



**Balıqlar** - Yaşananlara rəğmən bədbinliyə qapılmayın. Situasiyadakı qəfil dəyişikliklər sizi təbdən çıxarmasın. Həyatın acılı, şirinli olduğunu unutmayın. Təhsil və kommersiya ilə məşğulsunuzsa, ciddi uğur istisna deyil.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.